www.sportsman.az
XÜSUSİ BURAXILIŞ

# SPORTSMAN

20 il SİZİNLƏ

№ 147 / 2024
Jurnal 2004-cü ildən nəşr olunur




## İLHAM ƏLİYEVƏ SƏS VERƏK!
## İDMANIMIZA SƏS VERƏK!



OCAQ
SPORT
KLUBU
ÖVLADLARINIZIN SAĞLAM, AKTİV VƏ EYNİ ZAMANDA GÜCLÜ OLMASINI İSTƏYİRSİNİZ!? O ZAMAN ONLARI GİMNASTİKA MƏŞQLƏRİNƏ YAZDIRIN. GİMNASTİKA MƏŞQLƏRİ ÜÇÜN RAHATLIQLA ETİBAR EDƏCƏYİNİZ MƏKAN İSƏ "OCAQ SPORT" KLUBUDUR.
ƏLAQƏ NÖMRƏSİ: +99470 879 93 69 / +99450 642 92 82
ÜNVAN: ABBAS SƏHHƏT KÜÇƏSİ 2, HEYDƏR ƏLİYEV ADINA İDMAN ARENASI
WWW.OCAQSPORT.AZ
OCAQKLUB
OCAQSPORTKLUBU
SPORT KLUBU

# AZART FK











ÖVLADLARINIZIN SAĞLAM, AKTİV VƏ EYNİ ZAMANDA GÜCLÜ OLMASINI İSTƏYİRSİNİZ? O ZAMAN ONLARI FUTBOL MƏŞQLƏRİNƏ YAZDIRIN!

ƏLAQƏ NÖMRƏSİ : +99455 869 08 08

WWW.AZART-GROUP.COM

AZART.FK

AZƏRBAYCAN ŞAHMAT FEDERASİYASI

AZERBAIJAN CHESS FEDERATION

AZƏRBAYCAN UNİVERSAL DÖYÜŞ FEDERASİYASI

AZERBAIJAN UNIVERSAL FIGHT FEDERATION




www.hyundai.az

HYUNDAI

# XÜSUSİ BURAXILIŞ


## 1997-ci İLDƏN BAŞLANAN YOL
*səh.8*

## İDMANDA KÜTLƏVİLİK AMİLİ
*səh.14*

## İDMAN QURĞULARI
*səh.18*

SİDNEY - 2000

## OLİMPİYA HƏRƏKATI
*səh.26*

AFİNA - 2004

## ÇƏTİN SINAĞIN UĞURLARI
*səh.30*

PEKİN - 2008

## BİR DÜNYA , BİR ARZU
*səh.34*

LONDON - 2012

## TARİXİ ZƏFƏR
*səh.38*

BAKI-2015

## I AVROPA OYUNLARI
*səh.42*

RIO-2016

## XXXI YAY OLİMPİYA OYUNLARI
*səh.48*

BAKI-2017

## IV İSLAM HƏMRƏYLİYİ OYUNLARI
*səh.52*

BAKI-2020

## QARABAĞ AZƏRBAYCANDIR!
*səh.56*

TOKİO-2020

## XXXII YAY OLİMPİYA OYUNLARI
*səh.58*



**SPORTSMAN**

**Baş redaktor:**
Rəşad Qəmərşahoğlu
*Əməkdar jurnalist, idman ustası*

Ünvan: Bakı, Fətəli Xan Xoyski 10,
Tofiq Bəhramov adına
Respublika Stadionu
Telefon: 012 511 23 45
e-mail: sportsmagazine@mail.ru

Jurnal Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyində qeydiyyatdan
keçmişdir. №1164

Müəlliflərlə redaksiyanın mövqeyi
uyğun gəlməyə bilər.
Reklamlarda gedən mətnlərə görə
jurnal məsuliyyət daşımır.
www.sportsman.az
Qiyməti: 10 AZN



*Son illərdə Milli Olimpiya Komitəsinin fəaliyyətində yeni bir mərhələ başlanandan sonra Azərbaycanda bədən tərbiyəsi, idman sürətlə inkişaf etməyə başlayıbdır. Biz bunun şahidiyik və xüsusən Azərbaycan idmançılarının 2000-ci ildə Sidney Olimpiya Oyunlarındakı böyük qələbəsindən sonra Azərbaycanda gənclər, idmançılar içərisində, ümumiyyətlə, cəmiyyətimizdə böyük bir ruh yüksəkliyi yarandı. Bədən tərbiyəsi təkcə gənclərimizin yox, bütün cəmiyyətin diqqət mərkəzinə çevrildi.*

***Heydər Əliyev***



*Biz Azərbaycan idmanının şərəfini ləyaqətlə qorumağa, ölkənin şan-şöhrətini yüksəltməyə söz vermişdik. Biz bunu etdik. İndi idmançılarımız dünyanın ən mötəbər yarışlarında böyük qələbələr qazanırlar. Dünyanin müxtəlif ölkələrinin möhtəşəm idman saraylarında Azərbaycan himni səsləndirilir, Azərbaycan bayrağı qaldırılır. Bu gün Azərbaycanı idman ölkəsi kimi də tanıyırlar.*

***İlham Əliyev***



# 1997-Cİ İLDƏN BAŞLANAN YOL

İdman sahəsində məqsəd və vəzifələr ümumi şəkildə aydınlaşmışdı. Bəs bunları kimlər, hansı qurumlar həyata keçirməli idi? Onların biri, həm də birincisi artıq fəaliyyətdəydi. Lakin bu, kifayət etmirdi. İkincisi də olmalı idi və Prezident onu da yaratdı. 1994-cü il 26 iyul fərmanı ilə Azərbaycan Gənclər və İdman Nazirliyini formalaşdırdı. Bununla bağlı tək onu qeyd etməklə kifayətlənək ki, belə bir nazirliyi yaradıb düzgün istiqamətləndirməklə, Heydər Əliyev bir gedişlə iki məsələnin həllinə yol açdı. İdman işlərinin həllində lazım olan ikinci təşkilatın simasında bundan daha böyük, daha önəmli, həm də daha mürəkkəb və keçid dövrü üçün həyati vacib bir işi görməli (pərakəndə gənc qüvvələri vahid ümumi məqsədlər ətrafında birləşdirməli, onları epoxal, ümumdövlət əhəmiyyətli strateji vəzifələrin həllinə yönəltməli) qurumun əsasını qoymuş oldu.





İndi qayıdaq Milli Olimpiya Komitəsinə. Beynəlxalq miqyasda böyük nüfuz, imkan və söz sahibi olan olimpiya təşkilatının Azərbaycandakı milli qurumu o vaxt çox gənc idi; MOK-un yaranışı, demək olar, respublikamızın müstəqilllik qazanması ilə eyni vaxta təsadüf edirdi. Lakin Komitənin təsis edildiyi tarixindən daha çox, 1997-ci ildən başladığı yol diqqəti cəlb edir, yaddaşlara yazılır. Həmin il iyulun 31-də qurumun İcraiyyə Komitəsi nizamnaməyə uyğun olaraq, səsvermə yolu ilə Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti İlham Əliyevi özünə prezident seçdi. Qeyd edək ki, idman ictimaiyyətinin bu təşəbbüsünə və seçdikdən bir neçə gün öncə edilmiş təklifə İlham Əliyev məhz həmin gün müsbət cavab verdi. Və açığı, bu razılıq əksəriyyət üçün əməlli-başlı sensasiya oldu. Əvvəla, o mənada ki, ARDNS vitse-prezidenti nəyə görə MOK prezidentliyi təklifinə - onun bacarıq və imkanları ilə müqayisədə çox da diqqət çəkməyən, o vaxtkı durumunda isə hətta ümumi diqqətdən kənar təsir oyadan bu məsuliyyəti daşımağa razı oldu? Az keçmiş, səbəb (qismən) və vəziyyət aydınlaşdı. İlham Əliyev lap uşaqlıqdan idmana böyük həvəs göstərib. Uşaq futbolunda, voleybolda, bunlardan da artıq - üzgüçülükdə böyük məharət sahibi olub. Hətta 1974-cü ildə o vaxtkı ADR-də (onda bu dövlət dünyada su idmanının liderlərindən idi) uşaqlar arasında keçirilən üzgüçülük yarışlarının qalibi olub, qızıl medala layiq görülüb. Ümumiyyətlə, Azərbaycanın dönməz fanatı, onun gələcək böyük qələbələrinin coşğun xəyalpərvəri olub. İndinin özündə də vaxt tapanda üzgüçülüklə məşğul olur.

Başqa bir səbəb olimpiya növlərinin, olimpiya mükafatlarının digər idman növlərinə nisbətən daha qiymətli, önəmli tutulması da ola bilərdi. Yəni mərhum Con Kennedinin fikrində də aşkar “oxunan" və elə ümumən də dünya ictimai fikrində - düşüncəsində bu sahənin "idmanın şahı" sayılmasıdır. Əlbəttə, bir də belə bir şöhrətli, ölkəyə yüksək imic qazandıra biləcək sahənin Azərbaycanda ağır durumda olması İlham Əliyevi narahat etməyə bilməzdi. Lakin gələcək dövlət başçısı MOK prezidentliyinə dəvəti tək deyilənlərə görə qəbul etməyib. Hadisələrin sonrakı gedişi göstərdi ki, burada daha ciddi, san-



ballı, nisbətən uzaq və çoxgedişli səbəb və məqsədlər də yer alıb. Yəqin, diqqətli oxucunun yadında olar ki, həmin təklifin göndərilməsi ilə İlham Əliyevin müsbət cavabının arası bir neçə gün çəkmişdi. Düşünüb, götür-qoy etmiş, özünün Azərbaycan idmanına verə biləcəyi töhfələrlə bərabər, MOK prezidentliyi digər ciddi şəxsi və ictimai-siyasi məqsədlərə nə dərəcədə uyuşa bilər? Bu sahədəki gələcək şəksiz uğurlar digər mümkün variantlarla müqayisədə necə ölçülə bilər? Və bu analitik hesablamaların nəticəsi göstərir ki, bu seçimdə həm MOK, həm də bütövlükdə Azərbaycan idmanı çox şeyə nail olub.

Bəli, İlham Əliyev Milli Olimpiya Komitəsinin prezidenti seçildi. Elə ilk günlər, anlar sübut etdi ki, bu seçimdə nə MOK səhv edib, nə də onun yeni prezidenti. Xüsusən, MOK-un, idmanımızın bu işdə çox qazandığı tezliklə aydın oldu. Gözlənildiyi kimi, yeni prezident fəaliyyətə coşğun enerji və işə bələdliklə, mövcud durumu maksimum düzgün qiymətləndirməklə, idmanımızı dirçəltməyin yol və vasitələrini dəqiq müəyyən edib, imkan daxilində bunları dərhal hərəkətə gətirməklə başladı. İdmançılarla, idman mütəxəssisləri ilə dalbadal, kollektiv və fərdi görüşüb, söhbətləşib, fikir mübadiləsi apardı. Həm də ilk görüşdəki çıxışındaca ortaya əməli plan və proqram qoydu. Bildirdi ki, idmanımızın sovetlər dağıldıqdan sonrakı geriləməsinin əsas səbəbi sahibsizlik, iqtisadi-maliyyə imkansızlığı, maddi təminatın və lazımi maddi-texniki bazanın olmamasıdır. Bu cəhətdən dövlətin öz vəziyyəti də ürəkaçan olmadığından, hələ ondan çox az şey gözləmək olar. Əsas çarə qalır sponsor axtarışlarına, idman sahəsində fərdi investisiyalar cəlb olunmasına, imkanlı insanların, sahibkarların himayəsinə. O, söz verdi ki, bütün şəxsi əlaqə və tanışlıqlarını bu məslənin həllinə yönəldəcəkdir. Və indi bilirik ki, MOK prezidenti öz vəd və məqsədlərinə az vaxt ərzində nail oldu.

Məhz həmin görüş və çıxışlarında o, idman sahəsinə rəhbərliyin necə olmalı və nə demək olduğunu hər kəsə əməli şəkildə göstərdi; hərçənd məqsədi heç də bu deyildi. Sadəcə o, belə işləməyə vərdiş edib. Yeni prezident o dövrdəki çıxışları və işi ilə ortaya təkcə MOK-un deyil, bütövlükdə ölkə idman qurumlarının geniş fəaliyyət prinsiplərini qoydu. Nədən ibarət idi bu rəsmi və qeyri-rəsmi prinsiplər, onların əsas tərkib hissələri?

Ən əsası ayrı-ayrı idmançılar, məşqçilər, federasiya və komanda rəhbərləri ilə mehriban, səmimi, şəxsi dostluq-yoldaşlıq münasibətləri yaratmaq, imkan daxilində onlara kömək etmək, əl tutmaq idi. Bununla bağlı yüzlərlə hadisə və fakt sadalamaq olar. Amma buna ehtiyac duymuruq, ona görə ki, idmanla maraqlanan hər kəs mətbuatdan, elektron informasiya vasitələrindən hər gün bu barədə məlumat alır. MOK-un yeni prezidenti açıq bildirirdi ki, istənilən halda, xüsusən də, azad bazar iqtisadiyyatı şəraitində idmanın durumu, bütövlükdə bu sahəyə və ayrılıqda hər bir idmançıya nə kimi iqtisadi-maliyyə dəstəyi verilməsindən, onun və ailəsinin, başqa peşələrə nisbətən çox erkən başlayan idmandan sonrakı sabahına necə təminat yaradılmasından asılıdır. Sovetlər birliyinin süqutu və respublikada hərtərəfli böhran hökm sürdüyü, iqtisadiyyatın az qala sıfır həddinə düşdüyü ilk müstəqillik illərində məhz sözügedən səbəbdən ən yaxşı idmançılar dolanışıq dalınca xaricə üz tutmalı olmuşdular. Ona görə, MOK prezidenti İlham Əliyev bu məsələlərdə hər vasitə ilə, mümkün qədər tezliklə dönüş yaratmaq niyyətini və iradəsini ortaya qoydu. Azərbaycan dövlətinin ümumi iqtisadi durumu yaxşılaşdıqca, bütün sahələr kimi idmanda da sürətli dönüşə nail olundu.

Hakimiyyətə qayıdışın lap əvvəlindən ulu öndər Heydər Əliyevin idmana, idmançılara, bütövlükdə bu sahənin inkişafına böyük qayğısı göz qabağında idi; çatışmayan sahənin özündən, onun başçılarından gəlməli təşəbbüs və təkliflərin verilməsində çətin ki, kimsə İlham Əliyevlə bəhsləşə bilərdi. O, birinci növbədə qarşısına qoyduğu məqsədlər-vəzifələr sırasında xaricdəki istedadlı, ölkənin adına şərəf gətirəcək idmançıların Vətənə qayıdışına nail olmağı, burada da onların iqtisadi cəhətdən həvəsləndirilməsi, onlar üçün layiq olduqları maddi, məişət və əlbəttə, idman uğurlarını davam etdirib artıra bilmələrinə münasib təlim-məşq şəraiti yaradılmasının həlledici amil olduğunu yaxşı bilirdi. Qabiliyyətli idmançıların, hakimlərin, mütəxəssislərin, təminatı ilə bərabər, mənəvi cəhətdən də həvəsləndirilməsi, onlara fəxri adlar, Prezident təqaüdləri verilməsi - bütün bunlar külli miqdarda maliyyə xərcləri tələb etməklə yanaşı, olduqca böyük diqqət, çoxlu vaxt, hədsiz enerji-qüvvə, maksimum səy istəyirdi. MOK prezidenti imkanlarını, gücünü-enerjisini əsirgəmədi. Bunu başqalarından da tələb edirdi. Onun Sidney Olimpiadasından bircə il keçmiş, ciddi şəkildə işlətdiyi bir ifadə bu baxımdan - idmançılar üçün bir həftənin, bircə günün də itirilməməli olması mənasında, ölkənin idman icti-





maiyyəti arasında az qala gündəlik iş devizinə çevrildi: "Növbəti Olimpiya Oyunlarına cəmi 3 (!) il qalır". İlham Əliyev bu sahədəki fəaliyyətinin lap əvvəllərində dəfələrlə və israrla vurğulayırdı ki, ölkədə idman hərəkatının, ümumən idmanın müvəffəqiyyətli inkişafı üçün iqtisadi-sosial amillərlə bərabər, daha bir neçə bazis şərtə önəm verəcəkdir. Bunlar uşaq və yeniyetmə idmanının, idmanın kütləviliyinin diqqət mərkəzinə çəkilməsi, mövcud olan idman qurğularında bərpa-yenidənqurma işləri aparılması və çağdaş dünya tələblərinə uyğun yenilərinin tikilməsi, bir də deyilənlərdən heç də az əhəmiyyətli olmayan beynəlxalq olimpiya və idman qurumları ilə sıx əlaqələr qurulması, getdikcə artan əməkdaşlıqdır. Qeyd etdiyimiz başqa məsələ və problemlər kimi, bu sonunculara dair də ayrıca proqramlar hazırlanıb, bənd-bənd, addım-addım həyata keçirilməyə başlandı. Onlar haqqında bir qədər sonra ətraflı danışılacaq. Burada isə qısa və ümumi qeydlərlə kifayətlənirik.

Cəmi bir neçə il ərzində uşaq və yeniyetmə idmanı, demək olar, yenidən təşkil edilərək kütləviləşdirildi. Ay-





rı-ayrılıqda respublika uşaq və yeniyetmə oyunları keçirilməsi ənənəyə çevrildi, bunlar müvafiq beynəlxalq yarışlarla əlaqələndirildi, hər birində Azərbaycan fərəhli qələbə və nəticələr qazandı.

Əvvəlki idman qurğularının təmiri və yenidən qurulması, təzə idman qurğularının inşası, onlarin müasir avadanlıqla təchiz edilməsi ilə yanaşı, vur-tut 3-4 il ərzində paytaxtımızla yanaşı, ölkənin əksər bölgələrində də dünya standartlarına uyğun, gözəl və əzəmətli olimpiya idman kompleksləri tikilib, idmançıların və əslində bütün əhalinin istifadəsinə verildi. İndi də bu iş çox böyük uğurla, müvəffəqiyyətlə davam etdirilir. MOK-un yeni rəhbərliyi seçiləndən az sonra, onun sorağı çox tez-tez qitə və dünya idman qurumlarından, beynəlxalq federasiyalardan, öz növbəsində, bu təşkilatların başçılarının da səsi Bakıdan, Azərbaycandan gəlməyə başladı. Necə deyərlər, qatar hərəkətə gəldi və getdikcə artan sürət yığmağa başladı. Bunun əks-sədası isə hər iki başda eşidildi. Hər iki tərəfə olduqca faydalı olması, ilbəil, aybaay artan səmərəsi ilə: BOK, AOK, digər beynəlxalq idman qurumları Azərbaycan Milli Olimpiya Komitəsinin simasında çox aktiv, fəaliyyət miqyasını sürətlə genişləndirən, hərəkət tempini də eyni nisbətdə artıran bir MOK əldə etmişdisə, bu MOK, onun təmsil etdiyi Azərbaycan adlı "təzə ölkə" də həmin qurumların simasında, Vətəndə idmanın (və deməli, sağlamlığın da) inkişafında, bəlkə bundan da önəmlisi - məmləkətin, xalqın dünyada tanıdılmasında, dolayısı yolla səsinin aləmə çatdırılmasında təmənnasız, güclü müttəfiq tapmış oldu. Elə buna görəydi ki, ilk vaxtlardan nəinki MOK prezidenti, elə dünyagörmüş, dünyanın tanıdığı, ağsaqqal dövlət başçısı da idmançıların hər bir qayğısını diqqət mərkəzində saxlayır, problemlərini qısa zamanda həll edirdilər. Və son illərin təcrübəsi ulu öndərimizin layiqli davamçısı İlham Əliyevin tutduğu yolda, başladığı kursda nə qədər haqlı olduğunu dönə-dönə göstərdi.

Milli Olimpiya Komitəsinə prezident seçildiyi ilk günlərdən İlham Əliyev bütün ehtiyatları səfərbər edib düzgün istiqamətə yönəltmək, ölkə idman qurumları arasında sıx əməkdaşlıq yaratmaq, onların vahid proqram əsasında Azərbaycanda bu sahənin tərəqqisinə xidmət etməsi yönündə işə girişmişdi. Məhz bunlar ölkə idmanının, Olimpiya hərəkatının beynəlxalq miqyasda nüfuz qazanmasında real imkanlar açdı. İdmançılarla şəxsi görüşlər, tanışlıqlar, problemləri ilə gündəlik, əməli məşğul olmaq, onların yüksək məqsədlər uğrunda mübarizə əzmini artırır, onları hər bir yarışa daha məsuliyyətlə hazırlaşmağa kökləyirdi.

MOK-un yeni prezidenti ilk görüşünü ölkəmizin tanınmış idmançıları ilə, 1997-ci il sentyabrın 25-də Gənclər və İdman Nazirliyində keçirdi. Azərbaycanı beynəlxalq yarışlarda şərəflə təmsil etdiklərinə görə idmançılara minnətdarlığını bildirərək, çox keçmədən onlara hər cür şərait yaradılacağını bəyan etdi. Bunun ardınca, bütin federasiya prezidentlərinin iştirakı ilə toplantı keçirildi. Cəmi 3 ay sonra dekabrın 25-də idmançılarla yeni görüşü zamanı isə il ərzində fərqlənənləri mükafatlandırmaq, onların mənzil təminatını yaxşılaşdırmaq ənənəsinin əsasını qoydu. MOK-un yeni prezidentinin qayğısından ilk bəhrələnən ağır atletika üzrə dünya çempionatının gümüş mükafatçısı Asif Məlikov və sərbəst güləş üzrə Avropa ikincisi Namiq Abdullayev oldu.

Beləliklə, idmançıları qəbul edib, problemlərini dinlədikdən sonra, funksionerlərlə görüşməklə hər bir məsələni kökündən həll etmək istiqaməti əsas fəaliyyət mexanizminə çevrildi.

1998-ci ildə idmançılarla, mütəxəssis və federasiya rəhbərləri ilə bir neçə dəfə görüşən İlham Əliyev, qarşıda duran problemlərin həlli, MOK-un dövlətlə və milli federasiyalarla fəal işbirliyini yaratmaq yönündə bir sıra əməli addımlar atdı. İcraiyyə komitəsinin dekabrın 26-dakı iclasında idmançılar ilin yekunlarına görə mükafatlandırıldı. MOK rəhbəri ilin ən yaxşı idmançısı, stend atıcılığı üzrə dünya kubokunun qalibi, dünya rekordçusu Zemfira Meftəhəddinovaya və Namiq Abdullayevə avtomobil, Zemfiranın məşqçisi Hafiz Cəfərova və Olimpiya Çempionu Nazim Hüseynovun məşqçisi Ağayar Axundzadəyə yeni mənzillərin açarlarını təqdim etdi. Və həmin vaxtdan da MOK perspektivli idmançılara xüsusi təqaüdlər verməyə başladı.

1999-cu ildə əsas diqqət Sidney Olimpiadasına lisenziyalar qazanılmasına yönəldildi. İdmançıların hazırlığı, Milli Olimpiya Komitəsi ilə Gənclər və İdman Nazirliyinin birgə planına uyğun olaraq, federasiyalarla qarşılıqlı əməkdaşlıq şəraitində həyata keçirilirdi. Lisenziya qazanan və bu sahədə perspektivli sayılan idmançılar MOK prezidentinin təşəbbüsü ilə olimpiya taqaüdü ilə təmin olunurdular.

İlham Əliyevin MOK rəhbəri kimi fəaliyyəti 2000-ci ildə Sidney Yay Olimpiya Oyunlarında öz parlaq əksini tapdı. İdmançılarımızdan Zemfira Meftəhəddinova və Namiq Abdulalyev olimpiya zirvəsinə yüksəldilər. Gənc boksçu Vüqar Ələkbərov isə bürünc medal qazandı. Sidneydən qalib kimi dönən Azərbaycan olimpiya komandasının üzvləri Vətəndə qəhrəman kimi qarşılandılar. Qaliblərin bu uğurları yüksək qiymətləndirilərək həm idmançılar, həm də məşqçiləri mükafatlandırıldı. Oktyabrın 18-də prezident sarayında olimpiyaçıları qəbul edən dövlət başçısı Heydər Əliyev təkcə medalla qayıdanlara deyil, Sidneydə Azərbaycanın şərəfini qorumuş bütün idmançılara müxtəlif pul mükafatları təqdim etdi. Olimpiya Çempionları Namiqlə Zemfira və onların məşqçiləri "Şöhrət" ordeni, Vüqar Ələkbərov və məşqçisi "Tərəqqi" medalları ilə təltif olundular.

Oktyabrın 29-da isə Milli Olimpiya Komitəsi Bakı Əyləncə Mərkəzində idmançıların şərəfinə ziyafət təşkil edərək, onların hər birini mükafatlandırdı. Tədbirdə çıxış edən MOK prezidenti İlham Əliyev qeyd etdi ki, idmançılarımız Sidneydə əldə etdikləri qələbə ilə müstəqilliyimizi daha da möhkəmləndirdilər, bütün dünyaya Azərbaycan idmançılarını, Azərbaycan vətəndaşlarının nəyə qadir olduqlarını sübut etdilər. Sidneydə Azərbaycanın bayrağı qalxdı, Azərbaycanın dövlət himni səsləndi. MOK prezidenti çıxışını bu sözlərlə tamamladı: "Siz, əziz idmançılar, çempionlar, hesab edirəm ki, gənc nəsil üçün, uşaqlar üçün örnək olmalısınız. Onlar sizin qələbələrinizə baxıb idman bölmələrinə gəlməlidirlər. Mən Sidneydə yaşadığım o qələbəni, xoşbəxt anları bir daha yaşamaq istəyirəm. Hesab edirəm ki, siz də bunu istəyirsiniz. Əminəm ki, belə də olacaq, 2004-cü ildə Afina olimpiadasında da Azərbaycan böyük uğurlar əldə edəcək!"

Tez-tez idmançılarla, onların məşqçiləri və federasiya rəhbərləri ilə görüşən, problemləri ilə maraqlanan, hər bir məsələnin vaxtında həllinə çalışan MOK prezidenti İlham Əliyev beləliklə, hər bir idmançının ən yaxın dostuna, himayədarına çevrildi. Ötən illər ərzində beynəlxalq yarışlardan, dünya və qitə çempionatlarından uğurla dönən idmançıları qəbul edib mükafatlandıran İlham Əliyevin, MOK İcraiyyə Komitəsinin hər ilin sonunda keçirilən iclasında onlarla idmançıya, mütəxəssisə yeni mənzil orderləri təqdim etməsi artıq ənənə halını alıb.

MOK İK-in 2003-cü ildə keçirilən prezident seçkilərində iki gün öncəki iclasında onun: "Əgər oktyabrın 15-də Azərbaycan xalqı mənə etimad göstərərsə, yenə də idmandan ayrılmayacağam. Əgər idmançılar tərəfindən razılıq olarsa, mən bundan sonra da bu vəzifəmi saxlayacağam" deməsi, idman ictimaiyyətinin böyük sevincinə səbəb oldu. Çünki çoxları İlham Əliyevin dövlət başçısı seçiləcəyi təqdirdə MOK prezidentliyindən imtina edəcəyini düşünürdü. Amma idmandan, idmançılardan ayrı qalmağı düşünmədiyini bəyan edən İlham Əliyev, bununla hamının nigarançılığına son qoymuş oldu. Həmin iclasdakı çıxışında ölkəmizdə idmanın inkişaf tempindən razı qaldığını vurğulayan İlham Əliyev deyirdi: "Hazırda ölkəmizdə olimpiya hərəkatı geniş vüsətlə inkişaf edir. Azərbaycan idmançılarının beynəlxalq yarışlarda qazandıqları medalların sayı ildən-ilə artır. 1997-ci ildən bu günə qədər bütün beynəlxalq yarışlarda - dünya, Avropa çempionatlarında, Olimpiya oyunlarında, rəsmi yarışlarda mindən çox medal qazanılmışdır. Bu, bir daha onu göstərir ki, Azərbaycan idmanı inkişaf edir, respublikamız dünyanın aparıcı idman ölkəsinə çevrilir. Bunu nəinki biz deyirik, bütün beynəlxalq idman qurumları nailiyyətlərimizi təsdiqləyir".



# İDMANDA KÜTLƏVİLİK AMİLİ





Ulu öndər Heydər Əliyev xalqın fiziki sağlamlığı üçün bədən tərbiyəsinə həmişə xüsusi qayğı göstərir, onun kütləviliyini ön plana çəkirdi. "Biz idmanı, bədən tərbiyəsini kütləvi etməliyik. Gənclərin tam əksəriyyətini buna cəlb etməliyik, bu Azərbaycan vətəndaşının hərtərəfli gələcəyi üçün təməldir. Buna nail olmaq üçün təbiidir ki, lazımı imkanlar da yaratmalıyıq, lazımı şərait də yaratmalıyıq" - deyən Heydər Əliyev siyasətini layiqincə davam etdirən MOK prezidenti İlham Əliyev, bu vəzifəyə seçilərkən idmançılar üçün hərtərəfli şərait yaradılacağına söz verdi. Sidney Olimpiadasından sonra ölkəmizin hər tərəfində idman qurğularının inşasına başlandı. Bakıda və Maştağa qəsəbəsində, bunun ardınca Naxçıvanda, Gəncədə, Şəkidə, Lənkəranda, Bərdədə, Qubada, Şamaxıda, Zaqatalada, Masallıda, Qazaxda, daha sonra Ağdamda, Ağdaşda, Balakəndə, Biləsuvarda, Füzulidə, Göyçayda, Hövsanda, İsmayıllıda, Kürdəmirdə, Oğuzda, Sabirabadda, Şağanda, Şəmkirdə, Tovuzda, İmişlidə, Qəbələdə, Sumqayıtda, Astarada, Cəlilabadda, Qobustanda, Xaçmazda, Şirvanda, Qaxda, Göygöldə, Qusarda, Abşeronda, Ağcabədidə, Saatlıda, Beyləqanda, Yardımlıda, Goranboyda, Tərtərdə, Neftçalada və Mingəçevirdə müasir olimpiya kompleksləri istifadəyə verildi. Hazırda Respublikamızın 50-yə yaxın yaşayış məntəqəsində belə idman mərkəzləri inşa olunub. Bundan əlavə, “Baku Crystal Hall”, “Su İdmanı Sarayı”, “Milli Gimnastika Arenası”, “Bakı





mərasimindəki nitqində Olimpiya hərəkatının inkişafı və təbliği sahəsində görüləcək işlərin hələ çox olduğunu deyən MOK prezidenti İlham Əliyev, bu baxımdan keçmiş təcrübənin müsbət cəhətlərindən faydalanmağın vacibliyini vurğuladı. Çıxışında hamını Azərbaycan idmanının, bədən tərbiyəsinin, olimpiya hərəkatının inkişafına köməyə çağıran İlham Əliyev, Azərbaycan idmançılarının beynəlxalq arenada milli bayrağımızı daha yüksəklərə qaldıracağından əmin olduğunu söylədi.

2000-ci il mayın 12-də T. Bəhramov adına Respublika Stadionunda Yeniyetmələrin II Respublika Oyunları final mərhələsinin təntənəli açılış mərasimində nitq söyləyən Prezident Heydər Əliyev, bu oyunların Azərbaycanda əlamətdar bir hadisəyə çevrildiyini qeyd etdi. Çıxışında oyunların iki illik tarixinə qısa nəzər salan MOK prezidenti isə dedi ki, 1998-ci ildə keçirilən yarışların başlıca

Atıcılıq Mərkəzi" və "Bakı Boks Mərkəzi" tikilərək idmançıların ixtiyarına verilib.

Ölkəmizdə bədən tərbiyəsinə göstərilən qayğı, əhalinin müxtəlif təbəqələrinin idman yarışlarına cəlb edilməsi ilbəil geniş miqyas alır. Ayrı-ayrı sahələrdə çalışanların Respublika spartakiadalarının keçirilməsi, qaliblərin beynəlxalq oyunlarda ölkəmizi təmsil etmələri artıq ənənə halını alıb. İlham Əliyevin təşəbbüsü ilə 1998-ci ildən başlayaraq, iki ildən bir keçirilən yeniyetmələrin respublika oyunları idmanın həm bölgələrdə inkişafı, həm də kütləviliyi baxımından yeni mərhələnin əsasını qoymuş oldu. Hər bir məktəbi əhatə edən bu yarışlar əvvəlcə rayon, ardınca zona mərhələsində təşkil edilərək, Bakıda final oyunları ilə başa çatır. 1998-ci ildən keçirilən yeniyetmə oyunları bu gün yüz minlərlə məktəblini yarış meydanına toplamaqdadır. MOK prezidenti İlham Əliyevin ilk oyunlardakı nitqinin sonunda dediyi "Qoy güclü qalib gəlsin" sözləri bu gün həmin yarışların şüarına çevrilib. Doğrudan da, güclülər qalib gəlir, qələbə qazana bilməyənlər isə növbəti yarışlara



daha ciddi hazırlaşırlar. 1998, 2000 2002, 2004 və 2006-cı illərdə keçirilmiş Respublika oyunlarının qalibləri arasından ölkəmizi beynəlxalq yarışlarda uğurla təmsil etmiş neçə-neçə istedadlı idmançının adını bu gün fəxrlə qeyd etmək olar.

Yeniyetmələrin I Respublika Oyunlarının final mərhələsinin açılış

məqsədi gənc idmançıları ümumdünya oyunlarına hazırlamaq idi: "Mən deyə bilərəm ki, biz buna nail ola bildik və gənc idmançılarımız Azərbaycanı Yeniyetmələrin Ümumdünya Oyunlarında ləyaqətlə təmsil etdilər. Göründə ki, bu oyunlar Azərbaycanda idmanın inkişafına böyük təkan verir,

qərara gəldik ki, oyunları ənənəyə çevirək və artıq ikinci dəfədir ki, bu oyunlar keçirilir. Bu o deməkdir ki, bu ənənə yaşayır və bundan sonra da yaşayacaqdır. Biz idmançılarımıza öz qayğımızı heç vaxt əsirgəməmişik, onlara hər zaman kömək etməyə çalışmışıq və buna nail oluruq. Çünki biz hesab edirik ki, idman ölkəmizin siyasətinin ayrılmaz bir hissəsidir. İdmanla məşğul olan insan həm güclü olur, həm də onda ruh yüksəkliyi olur.

Bizim tərəfimizdən aparılan işlər Beynəlxalq Olimpiya Komitəsi tərəfindən yüksək qiymətləndirilir. Bu da bizi çox sevindirir. Deməli, biz düz yoldayıq. Biz istəyirik ki, dünyanın hər bir yerində, hər bir idman meydançasında Azərbaycanın dövlət himni səslənsin, Azərbaycan bayrağı qaldırılsın.

Çox sevindirici haldır ki, son zamanlar ölkəmizdə idmana maraq, idmanla məşğul olmaq istəyənlərin sayı get-gedə artır. Biz səbəbi ilk növbədə bunda görürük ki, dövlət tərəfindən idmana olan qayğı yüksək səviyyədədir. Milli Olimpiya Komitəsi də öz tərəfindən əlindən gələni edir". MOK rəhbəri mərasimdə bəyan etdi ki, hazırda komitə xüsusi, geniş miqyaslı bir proqram üzərində işləyir. Proqramda Azərbaycanın hər bir bölgəsində yeni, müasir standartlara uğun idman kompleksləri tikilməsi nəzərdə tutulur. Çünki vaxtilə Azərbaycanın bir sıra görkəmli idmançıları öz ilk uğurlarını bölmələrində qazanıblar. Bu ənənəni bərpa etmək istəyini bildirən İlham Əliyev, çıxışını aşağıdakı sözlərlə bitirdi: "Bəli, bizə medallar lazımdır. Bizə Olimpiya medalları lazımdır, dünya və Avropa çempionatlarının medalları lazımdır. Amma bununla yanaşı deyə bilərəm ki, ilk növbədə, bizə sağlam gənclər, sağlam millət lazımdır". Bunun üçün isə ilk növbədə idmanın maddi-texniki bazası möhkəmləndirilməli, həm paytaxtda, həm də əyalətlərdə müasir tələblərə uyğun şərait yaradılmalı idi. Elə MOK prezidenti olaraq İlham Əliyevin fəaliyyətində də məhz bu amil öz əksini tapmışdır.

Son illərdə Respublikamızda bədən tərbiyəsi və idmanın inkişafı yönündə görülmüş işlərə nəzər saldıqda istər kütləvilik və gənclərin fiziki hazırlığı, istər ölkəmizin beynəlxalq arenalarda layiqincə təmsil olunması, istərsə də nüfuzlu beynəlxalq yarışların məkanına çevrilməsinə görə, Azərbaycanın əsl idman ölkəsinə çevrildiyinin şahidi oluruq.

2004-cü ilin sentyabrında Naxçıvan Üzgüçülük Mərkəzinin açılış mərasimindəki çıxışında Prezident İlham Əliyev Azərbaycanda idmanın əksər növlərinin inkişaf etdiyini, müxtəlif növlər üzrə həm olimpiya, həm də dünya çempionlarımız olduğunu qeyd etməklə bizə idmanın kütləviliyinin də zəruri olduğunu bildirdi. Hər bir gəncin, yeniyetmənin, uşağın idmanla məşğul olması və öz sağlamlığını möhkəmləndirməsi lazımdır. Çünki idman sağlamlıq deməkdir, həyat deməkdir.

Ölkədə istər maddi-texniki bazanın inkişaf etdirilməsi, istərsə də gənclərin bədən tərbiyəsi və idmana cəlb edilməsi üzrə görülmüş işlər bu gün öz bəhrəsini verməkdədir. Hər il məktəblilərin "Şahin" və "Cəsurlar" hərbi-idman oyunlarının, beynəlxalq qaçış günü çərçivəsində Bakıda və Gəncədə ənənəvi kütləvi qaçış yarışının təşkili, yeniyetmələrin beynəlxalq oyunlarında, tələbə universiadalarında ölkəmizin fəal iştirakı, spartakiadaların təşkili birbaşa idmanın kütləviliyinə, əhalinin sağlamlığına xidmət edir.



# İDMAN QURĞULARI






Azərbaycan Milli Olimpiya Komitəsinin 1997-ci ildə seçilmiş yeni heyəti ölkədə idmanın sürətli inkişafı və onun gələcək məkanlarını genişləndirmək məqsədi ilə mövcud maddi-texniki bazanın vəziyyətini dərindən təhlil etdi. Məlum oldu ki, Milli Olimpiya Komitəsinin özünə məxsus olan heç bir idman qurğusu yoxdur. 1992-ci ildə yaradılmış Milli Olimpiya Komitəsi Azərbaycanda idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, idman obyektlərinin normal fəaliyyətinin təmin edilməsi sahəsində heç bir iş görməmişdi. 1997-ci ildə komitə başqa taşkilata məxsus binanın bir neçə otağında yerləşmişdi. Təbii ki, bu vəziyyət həm komitənin imicinə, həm də onun işinə mənfi təsir göstərirdi. Azərbaycanda keçmiş SSRİ dövründən qalan, dövlət idman strukturlarına və həmkarlar ittifaqlarına mənsub idman qurğularının bir qisminin istismar müddəti bitmiş, digər qismi isə 90-cı illərin əvvəllərində ya köhnəlib yararsız vəziyyətə düşmüş, ya da keçid dövründə ölkədə hökm sürən özbaşınalıq, qeyri-sabitlik, baxımsızlıq, dağıdıcılıq siyasəti nəticəsində bərbad hala düşmüşdü. İdman zalları və meydançalarının böyük bir hissəsi öz təyinatı üzrə istifadə olunmurdu. İdman avadanlıqlarının əksəriyyəti köhnəlmiş və dağıdılmışdı. Mövcud idman zallarının təyinatı üzrə işlədilməsi, onların bərpası, idman avadanlıqlarının yeniləri ilə əvəz edilməsi zərurəti kəskin hiss olunurdu.

Azərbaycan Milli Olimpiya Komitəsi ölkə idmanının maddi-texniki






bazasının yaradılması və inkişafı üçün iki vacib istiqaməti müəyyənləşdirdi. Birinci istiqamət Azərbaycan Milli Olimpiya Komitəsinin maddi-texniki bazasını yaratmaq, ikinci istiqamət isə mövcud idman qurğularının yenidən qurulması, bərpası və avadanlıqla təchizatını təmin etmək oldu. Qarşıya qoyulmuş bu məqsəd və vəzifələri həll etmək üçün Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin ilk iclasında yeni idman obyektlərini inşa etmək, eyni zamanda, Milli Olimpiya Komitəsi üçün yeni inzibati binanın tikilməsi haqqında qərar qəbul olundu.

1998-ci ilin əvvəllərində müxtəlif idman federasiyaları ilə keçirilmiş görüşlərdə ayrı-ayrı idman növləri üzrə avadanlıq və vəsaitlərə tələbat öyrənilib həll edildi. Milli Olimpi-





ya Komitəsi idman avadanlıqları ilə təchizat məsələlərinə yardım göstərməyə başladı. Elə həmin il Bakıda, Naxçıvanda və Gəncədə iki universal zaldan ibarət yeni idman qurğularının, eləcə də Bakıda Milli Olimpiya Komitəsinin inzibati binasının layihələrinin hazırlanması üçün tender elan olundu. Müsabiqədə yerli və xarici tikinti təşkilatlarının iştirakına şərait yaradıldı. Xüsusi komissiyanın keçirdiyi müsabiqədə qalib gəlmiş layihələr əsasında 1999-cu ildə həmin obyektlərin tikintisinə başlanıldı.

Bakıda min nəfərdən çox tamaşaçı tutan iki universal zaldan ibarət Olimpiya İdman Kompleksinin tikintisi Sidney Olimpiya Oyunlarından bir qədər sonra başa çatdı. 2000-ci il oktyabrın 20-də yeni Olimpiya Kompleksinin açılış mərasimində








Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, o dövrdə Avropa Olimpiya Komitəsinin prezidenti olan Jak Roqq, AOK-un baş katibi Mario Peskante və digər rəsmi şəxslər iştirak etdilər.

Açılış mərasimində Azərbaycan Prezidenti Heydər Əliyev geniş nitq söylədi. Dövlət başçısı nitqində qeyd etdi ki, "Azərbaycanda idmana qısa bir zamanda yüz minlərlə gənc cəlb olunubdur. Ancaq bütün gənclər idmana həvəs göstərir, idmanla məşğul olmaq istəyirlər. Bunun üçün maddi-texniki baza lazım idi. İndi isə Milli Olimpiya Komitəsi öz imkanlarından istifadə edərək, dövlətdən bir vəsait almayaraq, Azərbaycanın müxtəlif bölgələrində Olimpiya Komitəsinin idman komplekslərini tikməyə başlamışdır. Mən indi burada, bu salonda onların bir neçə layihəsi ilə tanış oldum və İlham Əliyev məlumat verdi ki, o yerlərin hamısında tikintilər gedir. Hesab edirəm ki, bu, Milli Olimpiya Komitəsinin işinin başlanğıcıdır".

Bu, doğrudan da başlanğıc oldu. İlk idman kompleksi 2000-ci ilin oktyabrında istifadəyə verildi. Hazırda Olimpiya kompleksinin zallarında idmançılar müntəzəm məşq edir və idmanın müxtəlif növləri üzrə yüksək səviyyəli yarışlar təşkil olunur.

Milli Olimpiya Komitəsinin son dövrlərdəki fəaliyyətinin əlamətdar hadisələrindən biri də onun yeni inzibati binasının istifadəyə verilməsi oldu. 2001-ci il mart ayının 26-da Azərbaycanda idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi proqramının bir hissəsi olan inzibati binanın tikintisi başa çatdırıldı. Bu müasir və yaraşıqlı iqamətgah cəmi bir il ərzində Milli Olimpiya Ko-





mitəsinin öz vəsaiti hesabına, heç bir xarici şirkətin iştirakı olmadan inşa edilmişdi.

Müasir tələblərə cavab verən bu binada Milli Olimpiya Komitəsinin aparatının, "Olimpiya" jurnalının redaksiyasının yerləşdirilməsi ilə yanaşı, müxtəlif regional və beynəlxalq tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Təsadüfi deyil ki, iqamətgah istifadəyə veriləndən bir neçə gün sonra Jak Roqq başda olmaqla Avropa Olimpiya Komitəsinin İcraiyyə Komitəsi burada öz iclasını keçirdi.

Azərbaycan Milli Olimpiya Komitəsinin həm idmanın inkişafında, həm də maddi-texniki bazanın möhkəmləndirilməsi sahəsində gördüyü işlər Beynəlxalq Olimpiya Komitəsi tərəfindən də təqdir olnur və bəyənilir.

Miili Olimpiya Komitəsinin idmanın maddi-texniki bazasının gücləndirilməsi sahəsindəki quruculuq işləri 2001-ci ildən yeni vüsət aldı. Ölkədə idmanın kütləviliyini təmin etmək üçün yerlərdə də idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi lazım gəlirdi. Yeni kompleks və bazalarda peşəkar idmançılarla yanaşı, həm də minlərlə insan öz fiziki sağlamlığını möhkəmləndirmək imkanı əldə edəcəkdi.

2002-ci il iyunun 15-də Naxçıvanda idman kompleksi istifadəyə verildi. Ermənistan tərəfindən blokadaya alınmış Naxçıvan şəhərində belə bir obyektin tikintisi böyük çətinliklər hesabına başa gəldi. Bu idman qurğusunun açılışında da Respublika Prezidenti, Olimpiya çempionları, tanınmış idmançılar iştirak etdilər.

Hələ 2000-ci ilin oktyabr ayında Gəncə şəhərinə səfəri zamanı Milli



Olimpiya Komitəsinin prezidenti İlham Əliyev, şəhərdə yeni idman sarayının təməl daşının qoyulması mərasimində iştirak etmiş, tikinti yerinə xatirə konteyneri basdırmışdı. Kompleksin tikintisi, onun idman avadanlıqları ilə təchizat işləri 2002-ci ildə başa çatdı. Gəncədəki monolit konstruksiyalı iki böyük idman salonu olan sarayın zallar hissəsi bir, qalan hissələri isə iki və üçmərtəbəlidir. İkinci mərtəbə tamaşaçılar, üçüncü mərtəbə isə inzibati hissə və qonaqlar üçün nəzərdə tutulmuşdur. Hər cür şəraiti olan sarayın idman oyunları salonunda 850 nəfər, təkbətək mübarizə salonunda isə 220 nəfər tamaşaçı üçün oturacaqlar quraşdırılmışdır.

Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin şəxsi təşəbbüsü ilə 2001-ci ildə Bərdə və Şəki şəhərlərində də idman qurğularının inşasına başlanmışdı. Şəki Olimpiya idman Kompleksi 2002-ci ildə istifadəyə verildi. Bu kompleksin açılış mərasimində ümummilli liderimiz Heydər Əliyev iştirak etdi.

2001-ci ildə Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev Lənkəranda olarkən ölkəmizin bu cənub bölgəsində yeni idman kompleksinin tikiləcəyi yeri müəyyənləşdirmişdi. Elə həmin ilin sonunda burada, 2002-ci ildə isə Quba rayonunda yeni idman kompleksinin tikintisinə başlandı.

2003-cü ildə Lənkəran, Bərdə və Qubada da Olimpiya idman komplekslərinin tikintisi başa çatdı və onlar istifadəyə verildi.

Şəki, Lənkəran və Qubada tikilmiş komplekslərdə üzgüçülük hovuzları yox idi. 2003-cü ildə Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyev, Gəncə, Naxçıvan, Lənkəran, Bərdə, Şamaxı Olimpiya idman komplekslərində üzgüçülük hovuzlarının tikilməsi barədə göstəriş verdi. İndi bu komplekslərin hər birində müasir üzgüçülük hovuzları inşa edilmiş və istifadəyə verilmişdir. Naxçıvanda isə xüsusi Üzgüçülük Mərkəzi fəaliyyət göstərir. Azərbaycan Milli Olimpiya Komitəsi id-





manın müxtəlif növlərinin inkişafı ilə bağlı xüsusi idman meydançalarının tikintisini də planlaşdırmışdı. Bakıda stend atıcılığı üçün idman qurğusunun və otüstü hokkey üçün stadionun tikintisi bu qəbildən idi. 2003-cü ildə bu idman qurğulari da idmançıların isifadəsinə verildi.

Milli Olimpiya Komitəsi respublikada bir sıra idman obyektlərinin bərpası sahəsində də əsaslı işlər aparmışdır. Bakıda İdman Oyunları Sarayı, İdman Konsert Kompleksi komitənin vəsaiti hesabına yüksək keyfiyyətlə yenidən qurulmuş, bərpa edilmiş və istifadəyə verilmişdir. Respublikanın rayonlarında bir sıra stadionların, idman bazalarının yenidən qurulmasında da Milli Olimpiya Komitəsi dəstəyini əsirgəməmişdir. Azərbaycanın bölgələrində, rayonlarında yeni, müasir idman qurğularının tikintisində bir məqsəd də respublika birinciliklərinin, müxtəlif yarışların, o cümlədən də mötəbər beynəlxalq yarışların respublikanın müxtəlif yerlərində keçirilməsinə nail olmaq idi. Olimpiya Komitəsi bu məqsədə də nail olmuşdur. Naxçıvan, Quba, Şəki, Lənkəran və Gəncədə müxtəlif beynəlxalq yarışlar keçirilmişdir. Yeni tikilən Olimpiya idman qurğuları çoxtəyinatlıdır. Bu obyektlər uşaqlar, yeniyetmə və yaşlıların ayr-ayrı idman növləri üzrə məşq etməsi, müxtəlif yarışların keçirilməsi, yığma komandalarımızın təlim-məşq toplanışlarının təşkili üçün nəzərdə tutulmuşdur. Bununla yanaşı, respublikamızın səfalı guşələrində yerləşən komplekslərin nəzdində olan kottec və mehmanxanalar təlim-məşq toplanışları olmayan dövrlərdə respublikada turizmin inkişafına yardımçı olur. Qeyd etmək lazımdır ki, Milli Olimpiya Komitəsinin təşəbbüsü ilə bir sıra idman növləri üzrə ixtisaslaşmış idman qurğuları artıq fəaliyyət göstərir. Bakıda yelkən idmanı üçün nəzərdə tutulmuş Yaxt-klub, Stend Atıcılığı Mərkəzi, "Musado" Taekvondo evi, Otüstü Hokkey Kompleksi, "ABU-Arena" həndbol mərkəzi, “Milli Gimnastika Arenası”, “Su İdmanı Sarayı” bu surada duran idman komplekslərimizdəndir.



# OLİMPİYA HƏRƏKATI





Olimpiya hərəkatının şah əsəri, onun zirvəsi və xidmət etdiyi əsas amalların təzahürü Olimpiya Oyunlarıdır. Hər 4 ildən bir keçirilən olimpiadalar özündə bir dövrün, dünyanın müxtəlif regionlarındakı hadisələrin annotativ təhlili və hesabatıdır. O, zamanın sülh nəbzidir. Olimpiya Oyunları bu zirvəyə gənc nəslin sağlamlığının və bu yolla əqidə, düşüncə tərzinə, tərəqqipərvər, hərtərəfli harmonik nəslin yetişməsinə, bəşəri ideyaların tərənnümünə xidmət etdiyi üçün çatdı. "Sitius, altius, fortius" - daha sürətli, daha yüksəyə, daha güclü" devizi isə insanın "daim irəli" əbədi hərəkət ideyalarının əksinə çevrildi. Niyə bu sırada Azərbaycan da irəliləməsin? Öz möhkəm yerini tutmasın? Dəyərli sözünü deməsin? idmançılarımızın ustalığının artması, cərgələrinin genişlənməsi, idman nəticələrinin daim yüksəlməsi Vətənin tərənnümü, təbliği ürəklərdə qərar tutması deməkdir. Məhz bu əsaslar MOK prezidenti İlham Əliyevin Olimpiya Hərəkatındakı liderliyinin ana xəttini təşkil etdi və o, cəmi 2 ildən sonra keçiriləcək Sidney Olimpiya Oyunlarında uğurla çıxış etməyi bir vəzifə kimi qarşıya məqsəd qoydu: "İstəyirəm ki, heç olmazsa bir Azərbaycan idmançısı olimpiadada qızıl medal qazansın. Əgər Azərbaycan himni Sidneydə səslənib, bayrağımız dalğalanarsa, mən özümü qalib hiss edəcəyəm".

Belə qısa müddətdə Olimpiya uğuru? Əlbəttə, bunun nə demək olduğu təkcə idmançı və məşqçiyə bəlli deyil. Oyunları izləmiş sadə azarkeş də dəqiq bilir ki, bu möhtəşəm idman bayramına hər bir ölkə, xüsusən idmançılar özləri çox ciddi hazırlaşır, bütün qüvvə və bacarıqlarını buna yönəldirlər.

1896-cı ildə vətəni Yunanıstanda keçirilmiş Olimpiya Oyunlarının qəhrəmanı kimi ucalmaq üçün illərin sınağı, təcrübəsi gərəkdir. Bu gün iqtisadiyyatı ilə diqqəti çəkən Yaponiya, ötən əsrin 60-cı illərindən əsl idman ölkəsinə çevrilməyə başladı. Çin isə 80-ci illərdən sanballı və mütəmadi uğurları ilə irəliləməyə müvəffəq oldu. Postsovet məkanı ölkələrinə nəzər yetirmiş olsaq, bütün nümunələr göstərir ki, Olimpiya oyunları iqtisadiyyatın təcəssümü, sosial-məişət rifahının göstəricisi və idmanın cəmiyyətdəki statusunun tablosudur. 1998-ci ilədək Azərbaycan hələ böyük yolun astanasında idi.



Belə bir məqamda ən yüksək zirvəni fəth etmək məqsədini qarşıya qoymaq Olimpiya Hərəkatı liderliyini öz üzərinə götürən şəxsdən böyük cürət tələb edirdi.

1998-ci il fevralın 20-də, olimpiya hərəkatına heç vaxt yardımını əsirgəməyən ölkə başçısı Heydər Əliyev, XXVII Yay Olimpiya Oyunlarına hazırlıq haqqında sərəncam imzaladı. Milli Olimpiya Komitəsinin beynəlxalq arenalarda, ölkədaxili məsul yarışlarda yüksək nəticələr göstərən idmançıların mükafatlandırması, onlara misli görünməmiş hədiyyələr verilməsi də hazırlığın sürətlənməsinə təkan oldu. Məqsədyönlü tədbirlərin nəticəsi kimi, olimpiadalarda cəmi ikinci dəfə müstəqil dövlət qismində təmsil olunan Azərbaycan, Sidneyə daha böyük tərkibli komanda ilə yola düşdü... landı. Yarışın açılış mərasimi sentyabrın 15-də Sidneyin mərkəzi arenasında oldu. Bu mənzərədə MOK-un xüsusi sifariş etdiyi geyimlərdə olan Azərbaycan nümayəndə heyətini görmək əlbəttə, sevinc, fərəh hissi oyadırdı. Bayrağımızı başı üzərində dalğalandıran kapitan Namiq Abdullayev oldu.

Ümumiyyətlə, iştirakçıların sayı da rekord həddə çatmışdı, 199 ölkədən 11 min atlet 17 gün ərzində 301 medal dəsti uğrunda mübarizə aparacaqdı. Onların arasında 31 Azərbaycan idmançısı da yer almışdı. Olimpiyaçılarımız cüdo, güləşin hər iki növü, stend və güllə atıcılığı, boks, atletika, ağırlıqqaldırma, üzgüçülük və suyatullanma növlərini təmsil edirdilər. Bütün yarışboyu arenalarda, Olimpiya kəndində idmançılarla birgə olan MOK prezidenti İlham Əliyev, hər gün, hər an dəstək oldu, ruhlandırdı, yeri gələndə dəyərli məsləhətlərini verdi. Söz yox ki, yarış zamanı belə bir dəstək hər bir idmançıya əlavə qüvvədir.

Azərbaycan komandasına ilk medalı qadınlar arasında stend atıcılığı yarışlarında iştirak edən Zemfira Meftahətdinova gətirdi. Onun çıxış etdiy idman növü ilk dəfə olaraq Olimpiya oyunlarının proqramına daxil edilmişdi. Zefmira bu növdə iki Olimpiya rekordu müəyyən etdi. O, ən yaxın rəqibi üç xal geridə buraxaraq, Olimpiya çempionu oldu.

Ölkəmizə ikinci qızıl medalı Atlanta oyunlarının gümüş mükafatçısı güləşçi Namiq Abdulayev gətirdi. Finalda ABŞ idmançısı Samuel Henson üzərində inamlı qələbə qazanan Namiq, Olimpiya çempionu tituluna sahib çıxdı.

Azərbaycan boksunun səlnaməsinə də ilk Olimpiya medalı yazıldı. Bu medalı ölkəmizə 19 yaşlı gənc boksçu Vüqar Ələkbərov gətirdi. Yarımfinalda planetin ən güclü boksçusuna inadla müqavimət




göstərməyinə baxmayaraq, uduzan atletimiz Sidney oyunlarının bürünc mükafatçısı oldu.

İki qızıl və bir bürünc medalı olan Azərbaycan medal qazanan 80 ölkə arasında 34-cü yeri, Avropa ölkələri arasında isə 23-cü yeri tutdu. Beləcə, Azərbaycan idmanı Sidney sınağından da zəfərlə çıxdı.



# ÇƏTİN SINAĞIN UĞURLARI









Ölkəmizdə Afina Yay Olimpiya Oyunlarına hazırlıq Sidney Olimpiadasından dərhal sonra başladı. Bir neçə mərhələdə aparılan bu hazırlığa dövlət qayğısını təmin etmək üçün Azərbaycan Prezidenti Heydər Əliyev 5 iyun 2003-cü il tarixli XXVIII Yay Olimpiya Oyunlarına hazırlıq haqqında sərəncam imzaladı. Milli Olimpiya Komitəsinin prezidenti İl-







ham Əliyevin Sidney Oyunlarından az sonra dediyi "Afina Yay Olimpiya Oyunlarına cəmi dörd il qalıb" sözləri hazırlığa başlamaq üçün ciddi əsas idi. Olimpiya Oyunları ərəfəsində Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin idmançılar, məşqçilər və mütəxəssislərlə vaxtaşırı görüşləri, təmasları, onların problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlər öz bəhrəsini verdi. Dünya və Avropa çempionatlarında uğur qazanan idmançılarımız Afina-2004-ə 12 idman növü üzrə 38 lisenziya əldə etdilər.

Avqustun 13-də Yunanıstanın paytaxtı Afinanın 72 min tamaşaçı tutan Olimpiya stadionunda Afina-2004-ün rəsmi açılış mərasimi oldu. Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva açılış mərasimində iştirak etdilər. Açılış mərasimində Azərbaycan Respublikasının dövlət bayrağını ağırlıqqaldırma üzrə dünya çempionumuz Nizami Paşayev apardı. Bu oyunlarda BOKun 204 ölkədən 202-i təmsil olunurdu.




Yarışlarda 11039 idmançı 2021 medal, o cümlədən 669 qızıl, 666 gümüş, 686 bürünc medal uğrunda mübarizə aparırdı. Atletlərimiz XXVIII Yay Olimpiya Oyunlarında 5 medal (1 qızıl, 4 bürünc) qazandılar. Fərid Mansurov yunan-Roma güləşi üzrə Olimpiya çempionu oldu. Stend atıcısı Zemfira Meftahətdinova, güllə atıcısı İradə Aşumova, boksçularımız Ağası Məmmədov və Fuad Aslanov bu möhtəşəm oyunlarin bürünc medalına sahib çıxdılar. Azərbaycan medal qazanmış 75 dövlət arasında keyfiyyətə görə 50-ci, medalların sayına görə isə 37-ci yeri tutdu. Avqustun 15-də Afinanın ən gözəl hotellərindən olan "Divani Karoveli" də XXVIII Yay Olimpiya Oyunları çərçivəsində Azərbaycan Günü keçirildi.

Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva mərasimdə iştirak etdilər. Sentyabrın 4-də, olimpiyaçılarımızın Yunanıstana yolasalma mərasimindən düz bir ay sonra Azərbaycan Prezidenti İlham Əliyev XXVIII Yay Olimpiya Oyunları iştirakçılarını qəbul etdi: "Mən idmançılarımızın çıxışını yüksək qiymətləndirirəm. İstəyirik ki, ölkəmizin idman şöhrəti daha yüksəklərə qalxsın. Hər dəfə Azərbaycan bayrağı qaldırılanda, dövlət himni səslənəndə hər bir ölkə vətəndaşı qürur hissi keçirir, o cümlədən mən də. Azərbaycan daha bir olimpiadanı uğur və inam notları ilə geridə qoydu. Hesab edirəm ki, ən önəmlisi budur ki, onlar kişi kimi yarışdılar və Azərbaycanın idman şöhrətini yüksəklərə qaldırdılar".







# BİR DÜNYA, BİR ARZU





Olimpiya oyunları start götürdüyü andan etibarən 17 gün və 17 gecə ərzində Pekinin "Qış yuvası" milli stadionunda fasiləsiz alovlanan müqəddəs Olimpiya məşəli avqustun 24-də söndürüldü. Beləcə, XXIX Yay Olimpiya Oyunları da tarixə qovuşdu. Pekin Olimpiadasında bir çox arzular hətta möcüzələr də həyata keçdi. Təkcə onu xatırlatmaq kifayət edər ki, 38 yeni dünya rekordu vuruldu. Pekin Olimpiadası Qərb və Şərq mədəniyyətlərinin inteqrasiyası simvolu olaraq, eyni zamanda, ümumdünya Olimpiya Hərəkatının gələcək inkişafına güclü təkan verdi. Beləliklə, Olimpiya tarixinə daha bir parlaq səhifə yazıldı, özü də Çin heroqlifləri ilə.






Azərbaycan Olimpiya yığması üçün də bu oyunlar olduqca uğurlu oldu. Pekinə 44 idmançı ilə yollanan təmsilçilərimiz yekunda Vətənə 7 (1 qızıl, 2 gümüş, 4 bürünc) medalla döndülər. Qızıl medalı cüdoçu Elnur Məmmədli, gümüş medalları isə Yunan-Roma güləşçiləri Vitali Rəhimovla Rövşən Bayramov Azərbaycanın hesabına yazdırdılar. Ölkəmizə bürünc medalları isə cüdoçu Mövlud Mirəliyev, boksçu Şahin İmranov, güləşçilər Xetaq Qazyumov və Mariya Stadnik qazandırdılar. Olimpiada adlı serialın bu nəticələrini Azərbaycan idmanının qələbəsi kimi dəyərləndirmək olar. Atletlərimizin sayca, dördüncü belə yarışa qatılmalarını və medal sayına salınan nəzər bunu deməyə əsas verir. Onların arxasında isə idmançıların və məşqçi heyətinin gərgin əməyi, dövlətin idmana göstərdiyi diqqət və qayğı dayanır. Avqustun 10-da Çin Xalq Respublikasının paytaxtı Pekində - "China World Hotel"də XXIX Yay Olimpiya Oyunları çərçivəsində Azərbaycan Günü keçirildi. Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etdilər. Mərasimin keçirildiyi salon ölkəmizin dövlət bayrağı ilə, Azərbaycana xas milli üslubda zövqlə bəzədilmişdi. Burada quraşdırılmış iri ekranlarda Azərbaycanın mədəniyyəti və incəsənətindən, tarixindən, müasir inkişafından bəhs edən videomateriallar nümayiş etdirildi.

Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev avqustun 29-da XXIX Pekin Yay Olimpiya Oyunlarında iştirak etmiş idmançılarla və onların məşqçiləri ilə görüşdü: "Olimpiya oyunları kimi çox böyük və dünyanın ən mötəbər, birinci idman yarışında 7 medal qazanmaq çox böyük nailiyyətdir, böyük uğurdur və bizim hamımızı çox sevindirir. Müstəqil dövlət kimi Azərbaycan Yay Olimpiya Oyunlarında dörd dəfə iştirak etmişdir və hər dəfə daha da böyük nailiyyətlər qazanmışdır. İlk dəfə Atlantada 1 gümüş medal qazanılmışdı, sonra Sidneydə 2 qızıl, 1 bürünc, ondan sonra Afinada 1 qızıl, 4 bürünc və bu dəfə Pekində 1 qızıl, 2 gümüş və 4 bürünc medal qazanıldı. Bu, doğrudan da böyük nailiyyətdir və onu göstərir ki, idmançılarımızın çox böyük potensialı, çox böyük peşəkarlığı var. Nəzərə alsaq ki, bizim idmançılarımızın bir neçəsi medala çox yaxın idi, yəni bir addımlığında idi, eyni zamanda, gümüş və bürünc medal qazanan idmançılar daha da böyük uğur əldə edə bilərdilər, - bəzən onların bəxti gətirmədi, bəzən təsadüf, bəzən hakimlərin qeyri-ədalətli qərarları ucbatından mümkün olmadı, - biz görürük ki, doğrudan da bizim çox böyük imkanlarımız var. Medalların sayı 10 da ola bilərdi, ondan da çox ola bilərdi, ondan da az ola bilərdi, çünki bu, idmandır. Siz idmançılar bunu yaxşı bilirsiniz ki, idmanda qələbə də olur, məğlubiyyət də olur. Qələbə bizi daha da ruhlandırır, məğlu-




biyyət isə nəticə çıxarmağa sövq edir. Hər bir yarışda idmançıların imkanları özünü büruzə verir, xüsusilə Olimpiya oyunlarında. Mən sizi və bütün Azərbaycan xalqını Azərbaycan milli olimpiya komandasının Pekin Yay Olimpiya Oyunlarında qazandığı böyük qələbə münasibətilə ürəkdən təbrik edərək, milli komandanın bütün fəaliyyətini yüksək qiymətləndirirəm. Bu günlər ərzində biz daha da birləşdik, bütün Azərbaycan xalqı daha da birləşdi və siz Azərbaycan xalqına sevinc gətirərək, təbəssüm və qürur hissi bəxş etdiniz.



Mən bu gün xüsusilə bizim gənc çempionumuzu, Elnur Məmmədlini qeyd etmək istəyirəm. Hesab edirəm ki, Elnur bütün Olimpiya oyunlarında bütün idman növləri üzrə ən istedadlı idmançılardan biridir. Onun qələbəsindən sonra mən dedim ki, araşdırın, görün, Olimpiya oyunlarında belə bir hal olubmu ki, bir idmançı bütün görüşləri təmiz qələbə ilə başa vursun və final görüşündə dünya çempionunu cəmi 13 saniyə ərzində məğlub etsin, özü də gözəl şəkildə. Həm onun peşəkarlığı, həm onun vətənpərvərliyi və həm də ki, fəndləri çox estetik şəkildə etmək bacarığı bizim hamımızı heyrətləndirdi. Belə insanlar, belə gənclər hər bir gənc üçün nümunə olmalıdır. Bütün başqa idmançılar da çox gərgin mübarizədə qələbə qazanmışdılar. Sizi böyük qələbə münasibətilə bir daha ürəkdən təbrik edirəm, sizə növbəti qələbələr, uğurlar arzulayıram.






# TARİXİ ZƏFƏR

XXX London Yay Olimpiya Oyunları Azərbaycan idmançılarının uğurlu çıxışı ilə yadda qaldi. Dördilliyin ən mötəbər idman yarışında ölkəmizin təmsilçiləri 2 qızıl, 2 gümüş və 6 bürünc medal qazandılar. Bu, respublikamızın müstəqillik tarixində Olimpiya Oyunlarında qeydə alınmış ən yüksək nəticədi.

Oyunlara Azərbaycan rekord idmançı sayı ilə yollanmışdı. Dörd il əvvəl Pekin-2008 olimpiadasına 44 idmançı ilə təmsil olunmuşduqsa, Londonda artıq 53 idmançımız mübarizə aparırdı. Olimpiya oyunlarına lisenziya sayının yüksək olması medal şanslarını da xeyli artırırdı. Hələ olimpiada öncəsi mütəxəssislərin apardığı






arışdırmalara görə, Azərbaycan ona yaxın medal qazanmaq imkanına malik idi. Proqnozlar özünü doğrultdu. Yığmamız, Böyük Britaniya paytaxtından on medalla dönərək, tarixi nailiyyətə imza atmağı bacardı. Medal sıralanmasında isə ölkəmiz 204 dövlət arasında 30-cu yerdə qərarlaşdı.

Bundan əvvəl Sidney-2000-də Olimpiya yığmamız iki qızıl medal qazanmışdı. 12 il avvəl güləşçi Namiq Abdullayev və stend atıcısı Zemfira Meftahətdinova fəxri kürsünün ən yüksək pilləsinə qalxmışdılar. Ümumiyyətlə, müstəqillik qazandıqdan sonra idmançılarımız Olimpiya oyunlarında 27 medal qazanıblar. Bunlardan 7-si qızıl, 5-i gümüş və 15-i bürüncdür. İdman növlərinə gəldikdə, birinci yerdə güləşçilərimizdir. Bu dəfə 2 qızıl, 2 gümüş və 3 bürünc medal qazanan pəhləvanlarımız, əvvəlki olimpiadalarda 2 qızıl, 3 gümüş və 2 bürünc medala sahib olublar. Digər idman növlərində isə qazandığımız medallar belədir - atıcılıqda 1 qızıl, 2 bürünc, boksda 6 bürünc, cüdoda 1 qızıl, bürünc və ağırlıqqaldırmada bürünc. Onu da qeyd edək ki, 1992-ci ildə cüdoçumuz Nazim Hüseynov Barselona Olimpiadasının qalibi olaraq, Azərbaycanın üçrəngli bayrağını ilk dəfə yüksəyə ucaltmışdı. O, İspaniyaya MDB ölkələrinin yığma komandalarının heyətində yollanmışdı.

Avqustun 31-də Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitasinin prezidenti İlham Əliyev XXX London Yay Olimpiya Oyunlarında iştirak



etmiş idmançılarla və onların məşqçiləri ilə görüşdü: "Azərbaycan, sözün əsl mənasında, idman dövlətidir.

London Yay Olimpiya Oyunları bunu bir daha təsdiqlədi, bir daha sübut etdi. Azarbaycan Olimpiya oyunlarında ən böyük uğuru London Olimpiya Oyunlarında qazandı. Bu Olimpiya Oyunlarında 200-dən çox ölkə iştirak edirdi. Azərbaycan bu yarışda 30-cu yeri tuta bildi. Medalların sayına görə 24-cü yerdəyik. Avropa ölkələri arasında 15-ci, müsəlman ölkələri arasında isə 3-cü yerdəyik. Azərbaycan idmançıları 10 medal qazandılar - ikisi qızıl, ikisi gümüş, altısı bürünc medaldır. Bu, doğrudan da böyük və tarixi nailiyyətdir. Bu, Azərbaycan idmanının, Azərbaycan dövlətinin təntənəsidir. Bu qələbə gözlənilən idi. Biz idmançıları Londona yola salarkən onlardan böyük ümidlərlə nəticə gözləyirdik. Bu ümidlərin əsası var idi. Çünki biz artıq neçə ildir ki, bu qələbəyə doğru irəliləyirik. Birinci dəfə müstəqil dövlət kimi Atlantada bir medal, ondan sonra Sidneydə üç, Afinada beş, Pekində yeddi və nəhayət, Londonda on medal qazanmışıq. Əhali və ərazi baxımından bizdən bir neçə dəfə böyük olan ölkələri arxada qoyduq. Bütövlükdə, idmançılarımızın Olimpiya oyunlarında çıxışı çox uğurlu idi. İlk günlərdən biz artıq xəzinəmizə medal daxil edə bildik. Yəni, birinci medalı ilk günlərdə qazandıq. Ondan sonrakı günlərdə də biz medallar qazana bilmişik. Amma əlbəttə ki, bütün Azərbaycan xalqı qızıl medal gözləyirdi. Nəhayət, Olimpiadanın son günlərində bir gündə iki qızıl medal qazana bildik.



Bir daha demək istəyirəm ki, bu, tarixi qələbədir. Bu qələbə idmançılarmızın qələbəsidir. Azərbaycan dövləti və xalqı adından bütün idmançılara peşəkarlığını, Vətən sevgisini nümayiş etdirən bütün idmançılara dərin minnətdarlığımı bildirmək istəyirəm. Ümidvaram ki, bizi gələcəkdə də medallar, qələbələr gözləyir. Bu qələbələr bütün xalqımızı sevindirəcəkdir. Medallar qazanmış idmançıları bu gün xüsusilə qeyd etmək istəyirəm. Bürünc, gümüş medallar qazanmış idmançıları və əlbəttə, bizim çempionları – Toğrul Əsgərovu və Şərif Şərifovu xüsusilə qeyd edirəm. Onlar doğrudan da xalqımıza sevinc bəxş etdilər”.



# BAKI-2015 I AVROPA OYUNLARI

## TARİX YAZIB, TARİXƏ YAZILDIQ!



Baku 2015
1ST EUROPEAN GAMES



2015-ci il Azərbaycanın idman tarixinin ən parlaq səhifələrindən biri olub. Bu il Bakıda tarixdə ilk dəfə olaraq birinci Avropa Oyunları keçirilib. Birinci Avropa Oyunlarının yüksək səviyyəli standartları məhz Bakı-2015-də müəyyənləşib.

I Avropa Oyunları Azərbaycan və Avropa üçün tarixi hadisə idi. Ölkəmiz bu səviyyədə beynəlxalq idman tədbirini qitədə birinci keçirən dövlət oldu. Avropa üçün tarixi hadisə ilk qitə oyunlarının arzudan reallığa çevrilməsi ilə özünü göstərdi. Belə oyunların təşkilinə hazırlaşmaq üçün





bir qayda olaraq, 7-8 il vaxt tələb olunur. Azərbaycan isə bu işin öhdəsindən 2 il yarımdan da az bir müddətdə gəldi. Eyni zamanda Azərbaycan, ən mötəbər oyunları həm yüksək səviyyədə keçirməyi, həm də belə oyunlarda böyük idman uğurları qazanmağa qadir olduğunu bütün dünyaya sübut etdi. 2015-ci il 12-28 iyun tarixlərində keçirilən ilk Avropa Oyunları müstəqil Azərbaycanın bu günə kimi tarixində ən möhtəşəm hadisə olub. Onun möhtəşəmliyinin ilk parlaq səhifəsi isə qədim Atəşgah məbədində Avropa Oyunlarının məşəlinin yandırılması idi. Məşəlin alovlandırılması mərasimi 2015-ci ilin aprel ayının 26-da Bakıda, "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğunda keçirilərək, Azərbaycanın və dünyanın idman tarixində əlamətdar bir hadisə kimi tarixə düşdü. Azərbaycan Prezidenti İlham Əliyev, xanımı, I Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva, ailə üzvləri, Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkey, gənclər və idman naziri Azad Rəhimov, MOK-un vitse-prezidenti





Çingiz Hüseynzadə mərasimdə iştirak ediblər. Prezident İlham Əliyev ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri, birinci xanım Mehriban Əliyevanın və Avropa Olimpiya Komitəsinin prezidentinin müşayiəti ilə Oyunların məşəlini alovlandırıb. Dövlətimizin başçısı məşəli Bakı-2015 Avropa Oyunlarının ilk məşəlçisinə ötürüb. Beləliklə, I Avropa Oyunlarının məşəlinin səyahəti başlayıb. Estafetə 1000 nəfərdən çox məşəlçi cəlb olunub və hərregionda "Alov festivalı" keçirilib. Məşəl yer üstündə avtobus, funikulyor, velosiped, yer altında Bakı metrosu, suda qayıq, havada isə təyyarə ilə daşınaraq təxminən 5500 km məsafə qət etdikdən sonra I Avropa Oyunlarının açılış mərasiminə - Olimpiya Stadionuna gətirilib.

I Avropa Oyunlarının açılış və bağlanış mərasimləri yalnız Azərbaycanın deyil, dünya idmanı tarixində özünə xüsusi yer tutan mədəniyyət hadisəsi olub. Avropa Oyunlarının açılış mərasimində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Rusiya Prezidenti Vladimir Putin, Belarus






Prezidenti Aleksandr Lukaşenko, Serbiya Prezidenti Tomislav Nikoliç, Türkmənistan Prezidenti Emoməli Rəhmon, Monteneqro Prezidenti Filip Vuyanoviç, Bosniya və Hersoqovinanın Rəyasət heyətinin sədri Mladen İvaniç, Monako şahzadəsi II Albert, Lüksemburqun Böyük Hersoqu Anri, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, Qazaxıstanın Baş naziri Kərim Məsimov, Rumıniyanın Baş naziri Viktor Ponta, Bolqarıstanın Baş naziri Boyko Borisov, Səudiyyə Ərəbistanı Krallığının şahzadəsi Abdullah Bin Musaad Bin Əbdüləziz, Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax, Milli Olimpiya Komitələri Assosiasiyasının prezidenti şeyx Əhməd Əl-Fahad Əl-Sabah, İSESCO-nun baş direktoru Əbdüləziz bin Osman Əl-Tüveycri, eləcə də San-Marino, İsveçrə, Böyük Britaniya, Slovakiya, Çexiya, İran, Ukrayna, Oman, Küveyt, Qətər və digər ölkələrin yüksək səviyyəli şəxsləri, tanınmış ictimai-siyasi xadimlər, dünya idman ictimaiyyətinin görkəmli nümayəndələri iştirak ediblər. Tam olmayan bu siyahı Oyunların bütün dünyanın diqqət mərkəzində olmasını bir daha bariz şəkildə təsdiq edib.

Açılış mərasimində Azərbaycan mədəniyyəti, incəsənəti, bütövlükdə “Odlar yurdu”nun tarixi Avropa və Şərq sivilizasiyalarının qovşağında möhtəşəm bir kompozisiyada təqdim olunub. Bütün dünya Azərbaycanı yenidən kəşf edib.

İlk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva mərasimdə çıxış edərək deyib: “Bu möhtəşəm bayram müstəqil Azərbaycanın, hər bir Azərbaycan vətəndaşının qələbəsidir. Müstəqillik illərində əldə etdiyimiz uğurlar və nailiyyətlər nəticəsində bu gün burada, gözəl Bakıda Avropa Olimpiya hərəkatının tarixində yeni səhifə yazılır. Bu səhifəni biz yazırıq, Azərbaycan xalqı yazır”.

I Avropa Oyunlarının açılış mərasimi 12 iyun tarixində Bakının Olimpiya Stadionunda keçirilib. Açılış mərasimində Avropa Oyunlarını rəsmi olaraq Prezident İlham Əliyev açıq elan edib. Yarışlarda Bakının 11, Mingəçevirin isə 1 idman qurğusundan istifadə edilib. Yarışlarda 50 ölkədən 5730 idmançı 20 idman növündə 253 dəst medal uğrunda mübarizə aparıb.

Bu dövrdə bütün diqqət yarış meydanlarına yönəlib. Azərbaycan Prezidenti İlham Əliyev və Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva demək olar ki, bütün idman növlərində yarışları canlı izləyib, qalibləri mükafatlandırıb, onların qələbələrinə seviniblər.

Azərbaycan I Avropa Oyunlarını 56 medalla başa vurub. İdmançılarımız 21 qızıl, 15 gümüş və 20 bürünc medalla Rusiya Federasiyasından sonra ikinci yerdə qərarlaşdılar. Bu oyunlarda təmsilçilərimiz Azərbaycan üçün ənənəvi sayılmayan idman növlərində də yüksək nəticə göstərməklə ölkəmizin idman potensialının nə dərəcədə güclü olduğunu təsdiq etdilər.

Azərbaycan Prezidenti İlham Əliyev I Avropa Oyunlarının Bakıda yüksək səviyyədə keçirilməsini Azərbaycanın təntənəsi kimi qəbul edərək deyib: “İdmanda əldə edilən uğurlar bir baza əsasında yaranır. Bu bazanı biz yaratmışıq. İdmançılar, klublar, federasiyalar, idman cəmiyyətləri, Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, biz hamımız birlikdə idmanı inkişaf etdiririk.

Biz gələcəkdə də uğurla inkişaf edəcəyik. Məndə bu məsələ ilə bağlı heç bir şübhə yoxdur. Azərbaycan inkişaf yolu ilə gedəcək. Gələcəkdə bizim böyük uğurlarımız və qələbələrimiz olacaqdır”!

I Avropa Oyunlarının yüksək səviyyədə təşkil olunmasında xüsusi xidmətləri olan Mehriban xanım Əli-




yevanın əməyi Avropa Olimpiya Komitəsi tərəfindən də yüksək qiymətləndirilib. Yanvarın 21-də İsveçrənin Lozanna şəhərində Avropa Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin iclasında Bakı-2015 I Avropa Oyunları Təşkilat Komitəsinin rəhbəri, Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya Avropada idmanın inkişafında göstərdiyi xüsusi xidmətlərə görə Avropa Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin qərarı ilə Avropa Olimpiya Komitələrinin ən yüksək mükafatı olan "Ali orden" təqdim olunub.

Azərbaycan Prezidenti İlham Əliyev isə I Avropa Oyunlarının təşkilindəki böyük xidmətlərinə görə Mehriban xanım Əliyevanı "Heydər Əliyev" ordeni ilə təltif edib.

**I Avropa Oyunlarının əbədi bir tarixə çevrilməsinə baxmayaraq, ölkəmizin əldə etdiyi uğurları belə ümumiləşdirmək olar:**

1. Azərbaycan Olimpiya Oyunları formatında möhtəşəm tədbir keçirməyə qadir olduğunu sübut etdi;
2. Azərbaycanın beynəlxalq aləmdə imici artdı;
3. Azərbaycanın tanınma miqyası və tanıyanların Azərbaycana rəğbəti kifayət qədər artdı;
4. Kifayət qədər çox insan Azərbaycan mədəniyyəti, idmanı, adət-ənənələri ilə yaxından tanış oldu;
5. Azərbaycanın idman infrastrukturuna mühüm idman obyektləri əlavə olundu;
6. Bakı şəhərinin nəqliyyat və digər infrastrukturlarında əhəmiyyətli irəliləyişlər və yeniliklər əldə olundu;
7. Azərbaycanın turizm potensialı artdı və ölkəyə turist kimi gələnlərin sayında artım üçün zəmin yarandı.



# RİO-2016 XXXI YAY OLİMPİYA OYUNLARI






2016-cı il Yay Olimpiya Oyunlarının keçirilməsi kimi yadda qalıb. MOK dünyanın bu möhtəşəm idman yarışlarında Azərbaycan atletlərinin iştirakını təmin edib. XXXI Yay Olimpiya Oyunlarında 207 ölkədən 11000-dən artıq atlet qələbə uğrunda mübarizə aparıb. Olimpiadada iştirak edən ölkələrdən yalnız 87-si müxtəlif əyarlı medallar qazana bilib.

Olimpiya Oyunlarında idmançılarımız 1 qızıl, 7 gümüş və 10 bürünc medal qazanaraq, bu möhtəşəm yarışı medal qazanan ölkələr arasında medalların sayına görə 15-ci, əyarına görə isə 39-cu pillədə başa vurdular.

Olimpiadaya ilk dəfə tam heyətlə - 4 idmançı ilə yollanan taekvondoçularımız 1 qızıl və 2 bürünc olmaqla 3 medal qazanıblar. Radik İsayevin (+80 kq) qızıl, Patimat Abakarovanın (49 kq) və Miladi Belqi Herçeqaninin (80 kq) bürünc medalları Olimpiya Oyunları tarixində Azərbaycan taekvondoçularının əldə etdiyi ilk medallar olub. Taekvondo üzrə milli komandamız bu nəticə ilə Rio-2016-nın taekvondo yarışlarında Cənubi Koreya, Çin və Böyük Britaniyadan sonra 4-cü pillədə qərarlaşıb. Bu növdə Azərbaycan millisi olimpiadanı MDB ölkələri arasında birinci, Avropada isə ikinci yerdə başa vurub.

Olimpiadanın güləş yarışlarında 14 idmançı ilə təmsil olunan milli komandamız 3 gümüş və 6 bürünc olmaqla 9 medal qazanıb. Bu nəticə ölkəmizin müstəqil dövlət kimi indiyədək iştirak etdiyi Olimpiya Oyunları ilə müqayisədə güləşdə ən çox medal qazanılması ilə yadda qalıb. İdmançılarımız qazanılan medalların sayına görə Rusiya ilə birinci yeri bölüşüblər.






Yunan-Roma güləşçilərimiz yarışların 5 çəki dərəcəsində çıxış ediblər. Rəsul Çunayev (66 kq) və Sabah Şəriəti (130 kq) bürünc medal qazanıblar. Bu nəticə ilə yunan-Roma yığmamız Dünya Güləş Birliyinin ənənəvi reytinq sıralamasında 3-cü olub. Qadın güləşində isə idmançılarımız 1 gümüş və 1 bürünc medal əldə ediblər. Mariya Stadnik (48 kq) yalnız finalda uduzaraq gümüş, Nataliya Sinişin (53 kq) isə bürünc medal qazanıb. Bu nəticə ilə qadın güləşi yığmamız reytinq sıralamasında 4-cü olub.

Yarışların son 3 günündə 6 çəki dərəcəsində mübarizəyə qoşulan 6 pəhləvanımızdan – Toğrul Əsgərov (65 kq) və Xetaq Qazyumov (97 kq) gümüş, Hacı Əliyev (57 kq), Cəbrayıl Həsənov (74 kq) və Şərif Şərifov (86 kq) isə bürünc medal qazanıblar. Medalların sayına görə (2 gümüş, 3 bürünc) sərbəst güləş yığmamız Dünya Güləş Birliyinin tərtib etdiyi reytinq sıralamasında birinci yerə çıxıb.

Azərbaycan atletlərinin Rio-2016-da qazandıqları medalların sırasına boksçularımız da 1 gümüş və 1 bürünc medal əlavə etməklə həm bu idman növündə, həm də ölkəmizin Olimpiya tarixində böyük bir uğur əldə ediblər. Azərbaycan Rioda boksçusunun finala yüksəldiyi 12 ölkədən biri olub. 13 medal dəsti uğrunda mübarizə aparan 11 boksçumuzdan Lorenzo Sotomayor (64 kq) gümüş, Kamran Şahsuvarlı (75 kq) isə bürünc medal qazanıb.



XXXI Yay Olimpiya Oyunları ölkəmiz üçün həm də onunla əlamətdar olub ki, ilk dəfə olaraq avarçəkmə idman növündə 1 gümüş və 1 bürünc olmaqla 2 medal qazanılıb. Valentin Demyanenko birnəfərlik kanoe qayığında 200 metr məsafədə gümüş, İnna Osipenko-Radomskaya isə bir nəfərlik kayak qayığı ilə 200 metr məsafəyə yürüşdə bürünc medal əldə edib.

Azərbaycan atletləri XXXI Yay Olimpiya Oyunlarında 18 medal qazanaraq ölkəmizin idman tarixinin daha bir qızıl səhifəsini yazıblar. Olimpiyaçılarımızın əldə etdiyi bu nəticə sayəsində Azərbaycan komandası medalların sayına görə 207 iştirakçı və 87 mükafatçı dövlət arasında 15-ci yeri tutub. Respublikamız bu yüksək nəticə ilə islam, türk və Qafqaz ölkələri arasında lider oldu. İdmançı sayının qazanılan medallara nisbətinə görə də Azərbaycan Olimpiadanın lider dövləti idi. Azərbaycan yığma komandası XXXI Yay Olimpiya Oyunlarında əvvəlki olimpiadalarla müqayisədə daha geniş tərkibdə - idmanın 18 növü üzrə 56 idmançı (57 lisenziya) ilə təmsil olunub. Bu ötən Olimpiya Oyunları ilə müqayisədə 4 idman növü çoxdur. Ölkəmiz Rio-2016-da triatlon, kamandan oxatma, velosiped və kanoe-slalom idman növlərində ilk dəfə iştirak edib. Ölkəmizi olimpiadada təmsil edən 56 idmançıdan 36-sı ilk dəfə Olimpiya Oyunlarının iştirakçısı idi. Olimpiadada ölkəmizi 3 hakim təmsil edib. Olimpiadada 8 idmançımız finala yüksəlmişdi və onların hər biri qızıl medal qazana bilərdi. Belə ki, Mariya Stadnika qızıl medal qazanmaq üçün 3 saniyə, Valentin Demyanenkoya 10 saniyə, Xetaq Qazyumova isə 10-15 saniyə çatmayıb.

2016-cı il sentyabrın 2-də Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilən XXXI Yay Olimpiya Oyunlarında iştirak etmiş idmançılarla və onların məşqçiləri



ilə görüşüb. Görüşə toplaşanlar Prezident İlham Əliyevi, xanımı Mehriban Əliyevanı və ailə üzvlərini hərarətlə qarşılayıblar. Dövlətimizin başçısı görüşdə nitq söyləyib: “Rio Yay Olimpiya Oyunlarında Azərbaycan komandası möhtəşəm və tarixi qələbə qazanmışdır. Azərbaycan idmançıları Rio Olimpiya Oyunlarında 18 medal qazanmışlar. Bu, rekord göstəricidir. Onlardan 1-i qızıl, 7-si gümüş, 10-u isə bürünc medaldır. Medalların sayına görə Azərbaycan komandası 14-15-ci yerləri bölüşür. Avropa ölkələri arasında 7-ci, keçmiş Sovet İttifaqı respublikaları arasında 2-ci, müsəlman dövlətləri arasında isə 1-ci yerdədir. Bu möhtəşəm qələbə bütün Azərbaycan xalqını sevindirir. Azərbaycan xalqı öz idmançıları ilə fəxr edir.

Azərbaycan idman dövlətidir. Biz məqsədyönlü şəkildə idman siyasətimizi apararaq, bu gözəl nəticələrə nail ola bilmişik. İlk dəfə Azərbaycan müstəqil dövlət kimi 1996-cı ildə Yay Olimpiya Oyunlarında iştirak etmişdir. O vaxt bizim cəmi 1 medalımız var idi. Ondan sonra hər Olimpiadada biz nəticələrimizi artırdıq – 2000-ci ildə 3, 2004-cü ildə 5, 2008-ci ildə 7 və 2012-ci ildə 10 medal qazanmışdıq. Biz hesab edirdik ki, bu böyük nəticədir və doğrudan da belədir. Çünki Yay Olimpiya Oyunlarında dünyanın ən qabaqcıl idmançıları iştirak edirlər və orada medal qazanmaq o qədər də asan deyil. Ancaq bu dəfə 18 medal əldə etməyimiz, əlbəttə onu göstərir ki, son 4 ildə Azərbaycan idmanı sürətlə inkişaf edib”.



# IV İSLAM HƏMRƏYLİYİ OYUNLARI

## 2017-Cİ İL – İSLAM HƏMRƏYLİYİ İLİ










Avropa Oyunları ölkəmizin mötəbər tədbirləri yüksək səviyyədə təşkil etmək, sağlam rəqabət və dostluq şəraitində keçirmək imkanlarını bütün dünyaya nümayiş etdirdi. Uğurla başa çatmış ilk Avropa Oyunlarının ardınca eyni məkanda növbəti İslam Həmrəyliyi Oyunları kimi mötəbər yarışların keçirilməsi Azərbaycan Respublikasının tolerantlıq və multikulturalizm prinsiplərinə bağlılığının bariz nümunəsi olmaqla yanaşı, onun idman şöhrətini artıraraq, beynəlxalq nüfuzunu daha da möhkəmləndirdi.

5 aprel 2017-ci il tarixində paytaxtımızdakı Daş Salnamə Muzeyində Bakı-2017 IV İslam Həmrəyliyi Oyunlarının Xəzərdən başlayan su səyahətinə start verildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Bakı-2017 İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyeva, ailə üzvləri, Səudiyyə Ərəbistanı Krallığının Şahzadəsi, İslam Həmrəylik İdman Federasiyasının prezidenti və Səudiyyə Ərəbistanı Milli Olimpiya Komitəsinin prezidenti Abdullah bin Mosaad bin Əbdüləziz Əl Səud mərasimdə iştirak ediblər.

Prezident İlham Əliyev mərasimdəki çıxışında bu il Azərbaycanda "İslam Həmrəyliyi ili" elan edildiyini bildirib: "IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsi bizim üçün böyük şərəfdir. Biz bunu İslam ölkələrinin Azərbaycana olan hörmətinin və inamının təzahürü kimi qəbul edirik. Bir aydan bir qədər sonra 57 ölkəni təmsil edən 3000-dən çox idmançı Azərbaycanda yarışacaq. Biz bütün qonaqları qəbul etməyə hazırıq. Əminəm ki, qo-






Atletlər paradının sonunda stadiona Müslüm Maqomayevin məşhur "Azərbaycan" mahnısının sədaları altında ev sahibi Azərbaycan komandası daxil olub. Azərbaycan bayrağını beşqat dünya çempionu Rəfael Ağayev aparıb. Stadiona İslam Həmrəyliyi İdman Federasiyasının bayrağı gətirilib. Azərbaycan Respublikasının birinci vitse-prezidenti, İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva açılış mərasimində çıxış edib: "Bu gün Azərbaycan bütün İslam aləmini qəbul edir. Dörd qitədən gəlmiş minlərlə idmançını və paytaxtımızın qonaqlarını səmimi qəlbdən salamlayır, onlara "Xoş gəlmisiniz" deyirəm! Bütün bu uğurlar münasibətilə gözəl Vətənimizin hər bir vətəndaşını təbrik edirəm. Qoy Ulu Tanrı Azərbaycanı qorusun!

Bu axşam biz İslam aləmini bir araya gətiririk. Azərbaycan bu ali missiyanı öz üzərinə götürməkdən fərəh hissi duyur. Biz minillikləri əhatə edən mədəniyyətə və güclü İslam ənənələrinə malik qədim diyarıq. Eyni zamanda biz gənc, müasir və sürətlə inkişaf edən ölkəyik.

Azərbaycan iki öncə I Avropa Oyunları çərçivəsində bütün Avropa qitəsini bir araya gətirərək tarix yazdı. İndi isə biz dörd qitənin İslam dünyasının insanlarını Bakıda – IV İslam Həmrəyliyi Oyunlarında birləşdiririk".

Sonra İslam Əmıkdaşlıq Təşkilatının baş katibi Yusif Əl-Osaymin çıxış edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev IV İslam Həmrəyliyi Oyunlarını açıq elan edib.

Oyunlar zamanı Bakıya rekord sayda – 54 ölkəni təmsil edən 3000-dən çox idmançı, 2000-dək komanda rəsmisi və texniki nümayəndə gəlib. İslam Həmrəyliyi Oyunlarında bu qədər ölkənin və idmançının iştirakı heç vaxt



naqların ölkəmizlə, onun reallıqları ilə, bizim qədim tariximizlə tanış olmaq üçün imkanları olacaqdır. Azərbaycan qədim tarixə, mədəniyyətə malik olan bir dövlətdir. Bizim mədəniyyətimiz, tariximiz qürur mənbəyimizdir, milli sərvətimizdir".

Su səyahəti ölkənin 15-dən çox tarixi şəhərini, 5 gölü, 1 su anbarını, 3 çayı, 1 bulağı, 3 şəlaləni və Xəzər dənizini əhatə edərək, 3000 km-dən çox məsafəni qət edib. Azərbaycanın müxtəlif guşələrində böyük təbii gözəlliyə malik 15 su məkanının hər birində iki atletin müşayiəti ilə yerli uşaq xüsusi mərasimdə mis qabı su ilə doldurub. "Xəzərdən başlayan səyahət" mayın 12-də Bakıda IV İslam Həmrəyliyi Oyunlarının açılış mərasimi ilə başa çatıb.

Mayın 12-də Bakı Olimpiya Stadionunda IV İslam Həmrəyliyi Oyunlarının təntənəli açılış mərasimi keçirilib.



müşahidə olunmayıb. Bakı-2017-ni 50-dən artıq ölkədə 1 milyarddan çox tamaşaçı izləyib. Yarışları 1000-dən artıq xarici və yerli media nümayəndəsi işıqlandırıb. İdmanın 21 növü üzrə keçirilən yarışlarda atletlər 269 dəst medal uğrunda mübarizə aparıblar. Ölkəmizi Oyunlarda 425 idmançı təmsil edib. İdmançılarımız IV İslam Həmrəyliyi Oyunlarında ümumilikdə 162 medal (75 qızıl, 50 gümüş, 37 bürünc) qazanaraq komanda hesabında birinci olublar. Ümumilikdə yarışlarda 40 ölkənin idmançıları 1600 medal qazanıblar.

2017-ci il mayın 22-də Bakı Olimpiya Stadionunda IV İslam Həmrəyliyi Oyunlarının təntənəli bağlanış mərasimi olub. Mərasimdə Azərbaycan Prezidenti İlham Əliyev, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Bakı-2017 Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva, İslam Həmrəyliyi İdman Federasiyasının baş katibi Faisal Abdulaziz Al-Nasseri və digər rəsmi qonaqlar iştirak ediblər.





Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Bakı-2017 Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva IV İslam Həmrəyliyi Oyunlarının başa çatması münasibətilə çıxış edib: “Azərbaycan növbəti tarixi qələbəyə imza atdı. Azərbaycan göstərdi ki, o, böyük idman dövlətidir. Milli komandamız ümumi hesabda birinci yeri qazandı. Bu tarixi qələbə ilə fəxr edir və Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bundan da böyük qələbə bu günlər ərzində nail olduğumuz İslam aləminin həmrəyliyi və birliyinin təntənəsidir. Paytaxtımız İslam idman ictimaiyyətini açıq qəlblə qəbul etdi və bu oyunların uğurlu olması bütün Azərbaycanın fədakarlığına və qəhrəmanlığına işarədir. Bütün dünyadan gəlmiş qonaqlarımız özünün qədim irsinə və ənənələrinə sadiq olan, gələcəyinə qətiyyətlə baxan ölkənin – Azərbaycanın mədəniyyəti və məşhur qonaqpərvərliyi ilə tanış oldular. Biz dünyanı Bakıda salamlamaqda davam edəcəyik.

... Beləliklə, mən qürur hissi ilə IV İslam Həmrəyliyi Oyunlarını bağlı elan edirəm. Sağ ol, Bakı! Sağ ol, Azərbaycan!”

Bağlanış mərasimində İslam Həmrəylik İdman Federasiyasının baş katibi Faisal Abdulaziz Al-Nasser çıxış edib,- sonda bayrağı növbəti İslam Həmrəyliyi Oyunlarının keçiriləcəyi ölkənin nümayəndəsinə, Türkiyə Respublikasının gənclər və idman nazirinin müavini Kamuran Özdənə təqdim edib. Türkiyənin dövlət himni – “İstiqlal marşı” səsləndirilib və Azərbaycan bayrağının yanında qardaş ölkənin bayrağı qaldırılıb.



# QARABAĞ AZƏRBAYCANDIR!



2020-ci il pandemiya dövrünün ən gərgin ili olduğundan bu ildə bütün dünyada ciddi məhdudiyyətlər qoyulub. Pandemiya ilə bağlı olaraq bütün dünyada idman tədbirlərinin keçirilməsi təxirə salınıb və ya vaxtı dəyişdirilib. Bu dövr xalqımız və eyni zamanda beynəlxalq arenalarda Azərbaycanın bayrağını yüksəklərə qaldıran, dövlət himnimizi səsləndirən idmançılarımız üçün çox böyük və şərəfli sınaq ili olub. 2020-ci il sentyabr ayının 27-də fitnəkar düşmən olan separatçı və işğalçı Ermənistan Respublikasının silahlı qüvvələri ölkəmizə qarşı növbəti irimiqyaslı hərbi əməliyyatlara başladı. Ordumuzun mövqelərinə və mülki yaşayış məntəqələrinə atəş zərbələri endirdi. Buna cavab olaraq, Azərbaycan Ordusu əks hücum əməliyyatına başladı. “Dəmir Yumruq” adını alan bu əməliyyat Vətən müharibəsinə çevrildi. 2020-ci ildə Azərbaycan xalqı və Milli Ordumuz Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 30 ilə yaxın müddət altında işğal altında qalan torpaqlarımızı 44 gün ərzində düşmən əsarətindən azad etdi. Vətən müharibəsində Azərbaycanın parlaq qələbəsilə Respublikanın ərazi bütövlüyü bərpa olundu.

44 günlük Vətən müharibəsi dövründə Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa müntəzəm müraciətlər edib: “Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qaarabağ bizimdir, Qarabağ Azərbaycandır!”



Bu müraciətlər Azərbaycan xalqını ayağa qaldıraraq, yumruq kimi sıx birləşdirdi. 44 günün hər günü Azərbaycanın şanlı tarixinə çevrildi. Vətən müharibəsində Silahlı qüvvələrimizin 3000-ə yaxın hərbi qulluqçusu şəhid oldu.

Vətən müharibəsində 988 nəfər idmançımız da döyüşüb. Onlardan 320 nəfər şəhidlik zirvəsinə ucalıb. 2020-ci ildə pandemiya səbəbindən beynəlxalq yarışlarda iştirak edə bilməyən Azərbaycan idmançıları öz Zəfər salnamələrini bu dəfə öz canları və qanları ilə Vətən müharibəsinin





döyüş meydanında yazdılar.

Vətən müharibəsi dövründə hamı Müzəffər Milli Ordumuza bacardığı köməyi etməyi özünün müqəddəs borcu sayıb. Milli Olimpiya Komitəsi də bu sahədə öz fəaliyyətini ləyaqətlə yerinə yetirərək, ordumuza dəstək məqsədilə Azərbaycan Respublikasının Silahlı Qüvvələrə Yardım Fonduna vəsait ayırıb.

7 oktyabr 2020-ci ildə Azərbaycan idman ictimaiyyəti, ölkəmizdə fəaliyyət göstərən idman qurumları və federasiyalar aidiyyatı beynəlxalq təşkilatlara və idman qurumlarına bəyanat ünvanlayıb. Bəyanat, Ermənistan tərəfinin Azərbaycana qarşı törətdiyi təcavüz aktını, son aylar ərzində düşmən tərəfinin həyata keçirdiyi məqsədyönlü təxribatçı fəaliyyətin durmadan artdığını və Azərbaycan tərəfinin özünümüdafiə hüququ çərçivəsində və mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Ermənistan silahlı qüvvələrinə qarşı müvafiq əks-tədbirlər həyata keçirdiyini özündə əks etdirib. Ümumilikdə 90 təşkilatın imzası ilə hazırlanan sənəd 12000-dək təşkilata göndərilib. 2020-ci il noyabrın 10-da Ermənistan kapitulyasiya aktı – “Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı” imzalanıb. Həmin gün xalqa sayca səkkizinci müraciətində İlham Əliyev milli şüara çevrilmiş “Qarabağ Azərbaycandır və nida” ifadəsinin artıq bütün Qarabağı əhatə etdiyini və Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulduğunu elan etdi.

2020-ci il Vətən müharibəsi şanlı Zəfər salnaməsi olaraq Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazıldı. Bu tarixi Zəfərin qazanılmasında Azərbaycan idmançılarının da özünəməxsus payı var. Beynəlxalq arenalarda yüksək qələbələr qazanaraq Azərbaycanın bayrağını ucaldan, dövlət himnimizin səsləndirilməsinə nail olan atletlərimiz bu əbədi Zəfər yolunun layiqli davamçıları olduqlarını sübut etdilər.




# TOKİO-2020 XXXII YAY OLİMPİYA OYUNLARI




2021-ci il bütün dünya, eyni zamanda idman sahəsi üçün də asan il olmayıb. Ölkəmiz üçün də 2021-ci il gərgin illərdən biri olsa da, imkan daxilində bütün sahələrin normal fəaliyyəti üçün lazımi tədbirlər görülüb.

2021-ci ildə də ölkəmiz beynəlxalq yarışlara ev sahibliyi edib. Milyonların sevimli idman növü olan qitə səviyyəli futbol yarışının Bakıda keçirilən oyunları əsl bayram əhval-ruhiyyəsi yaradıb. Avro2020-nin A qrupunda yer alan Türkiyə milli komandası Bakı Olimpiya Stadionunda Uels yığması ilə qarşılaşıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva, ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan oyuna baxıblar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Avropa Futbol Federasiyaları Assosiasiyasının (UEFA) prezidenti Aleksander Çeferin ilə görüşüblər.

Tokio-2020 XXXII Yay Olimpiya Oyunları Pandemiya səbəbindən 2021-ci ildə keçirilib (23.07 – 08.08.2021). Bu olimpiadada idman növlərinin (33 idman növü) və medalların sayına (339 medal) görə ən böyük idman yarışı olub. Tokio-2020 Olimpiadası müstəqil Azərbaycan at-

letlərinin iştirak etdiyi sayca yeddinci olimpiada idi. Dörd illiyin zirvə yarışında Azərbaycanın 44 idmançısı yarışlarda 13 idman növü üzrə mübarizə aparıb. Komandamızın heyətində karateçilərimizdən Rəfael Ağayev (kumite, 75 kq), İrina Zaretska (kumite, +61) və Hacı Əliyev (sərbəst güləş, 65 kq) gümüş, Rafiq Hüseynov (yunan-Roma, 77




kq), Mariya Stadnik (qadın güləşi 50 kq), İrina Kindzerska (cüdo, +78 kq) və Alfonso Dominges (boks, 81 kq) bürünc medal qazanıblar. Azərbaycan yığmasının qadın güləşçisi Mariya Stadnik müstəqillik tariximizdə rekorda



imza atıb. 33 yaşlı güləşçi ardıcıl olaraq 4-cü olimpiadada medal əldə edib. Pekin-2008-də 3-cü, London-2012 və Rio-2016-da 2-ci yeri tutmaqla Mariya Olimpiya oyunlarında 4 mükafat qazanan ilk idmançımız olub. Mariya həmçinin güllə atıcımız İradə Aşumovanın 4 olimpiadada iştirak etmə rekordunu təkrarlayıb. Azərbaycana Tokio-2020-nin ilk medalını qazandıran İrina Kindzerska cüdo tariximizə düşüb. İrina Kindzerska ölkəmizə Yay Olim-



piya Oyunlarının medalını qazandıran ilk qadın cüdoçu olub. Ona qədər Zülfiyyə Hüseynova (Atlanta-1996 və Sidney-2000), Kifayət Qasımova (Pekin-2008 və Lon-





don-2012), Ramilə Usubova (London-2012) və Aişə Qurbanlı (Tokio-2020) olimpiadalarda çıxışlarını mükafatsız



başa vurublar. Tokio Olimpiadasını Azərbaycan komandası 3 gümüş və 4 bürünc medalla başa vurdu. Gümüş medalların 2-si karate, 1-i güləş, bürünc mükafatlardan isə 2-si güləş, 1-i cüdo, 1-i də boks yarışlarında qazanılıb. Komandamız medalların sayına görə 31-ci, əyarına görə isə 67-ci yeri tutub.



Avqustun 12-də Prezident İlham Əliyev Azərbaycan Milli Olimpiya komandası üzvlərinin təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən bir nəfər 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni, üç nəfər



ikinci dərəcəli "Vətənə xidmətə görə" ordeni, üç nəfər üçüncü dərəcəli "Vətənə xidmətə görə" medalı, iki nəfər üçüncü dərəcəli "Əmək" ordeni, 7 nəfər isə "Tərəqqi" medalı ilə təltif edilib. Prezident İlham Əliyevin digər Sərəncamı ilə Azərbaycan Milli Olimpiya komandasının 5 üzvü "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif olunub. Dövlətimizin başçısı həmçinin Tokio Olimpiadasında fərqlənmiş idmançılar və onların



məşqçiləri üçün mükafatların müəyyən edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən ikinci yeri tutan hər bir idmançıya 200 000, məşqçisinə 100 000



manat, üçüncü yeri tutan hər idmançıya 100 000, məşqçisinə isə 50 000 manat pul mükafatı müəyyən edilib.



DÜNYA MEBELİ BİR ÜNVANDA,
BİR MƏKANDA!

BİZİM EV
MEBEL ŞƏHƏRİ

BAKI-SUMQAYIT ŞOSSESİ
7-Cİ KM / RİYAD TİCARƏT MƏRKƏZİ

*5115

www.bems.az




Bioloji Təbabət Klinikası



Göyçay Bioloji Təbabət Klinikası



Masallı Bioloji Təbabət Klinikası



Sumqayıt Bioloji Təbabət Klinikası

# BİOLOJİ TƏBABƏT KLİNİKASI

(012) 430 89 89
(050) 430 89 89
bioloji.tebabet
biolojitebabetklinikası

btk.az
info@btk.az
Bakı şəhəri, 3 mkr., S.C. Pişəvəri küç 110
M.Əcəmi m.st. yaxınlığı

Offissa dizayn

İSTƏNİLƏN NÖV OFİS MEBELLƏRİ



(+994) 12 525 41 52
(+994) 55 208 97 82

Nərimanov rayonu,
Aşıq Molla Cümə 46b

salon@offissa.com

www.offissa.com

offissa.dizayn

Offissa Dizayn

Offissa Dizayn

Onlayn Kataloq

# MONARCH PREMIUM RESIDENT

ALANYA / KARGICAKTA SİZLER İÇİN ÖZEL OLARAK İNŞAA EDİLMİŞTİR.












Monarch Premium Resident, İtalyan mimarisinden ilham alarak tasarlanmış, içi ve dışıyla gerçekten dikkat çekici bir proje olup Kargıcak'ın en kaliteli ve prestijli lüks konut projesidir. Bu muazzam daireler, alışveriş ve yemek merkezlerine yakın, denize yürüme mesafesinde yer almakta olup aynı zamanda bütün dairelerimiz deniz manzarasına sahiptir. Monarch Premium Resident, yaşamınıza değer katacak bir lüks deneyim sunmaktadır. Sizi bu benzersiz konut projesini keşfetmeye davet ediyoruz!

İnşaatı tamamlanan dairelerimiz Antalya / Alanya - Kargıcak bölgesindedir.
Dairelerimizin tamamı deniz manzaralıdır.
3+1 Doublex Daireler 450.000 €'dan, 2+1 Doublex Daireler 460.000 €'dan ve 1+1 Geniş Daireler 250.000 €'dan başlayan fiyatlarla...

İletişim için
Whatsapp Hattı:
+90 555 170 90 03

Adres : Kargıcak, Maklinistler Sk.
No:3, 07400
Alanya / Antalya

AZART

# AZART EXCLUSIVE CAR STYLING

Azərbaycanda lüks sinif avtomobillərin yüksək keyfiyyətli tuningi, restaylı və bərpası.

ROLLS ROYCE
LEXUS
BMW
LAMBORGHINI
LAND ROVER
PORSCHE
Ford
MASERATI
DODGE
ASTON MARTIN




- TUNİNG İŞLƏRİ
- EHTİYYAT HİSSƏLƏRİ
- RESTAYL - FACELIFT
- İNTERYER DİZAYN
- VİNİL İŞLƏRİ
- KARBON ÜZLƏNMƏ
- SƏS BOĞUCU SİSTEMİN YIĞILMASI
- AUDİO SİSTEM
- DİSKLƏRİN BƏRPASI
- DƏMİRÇİ İŞLƏRİ
- BATIQLARIN BƏRPASI
- RƏNGSAZ-MALYAR
- MÜHƏRRİK İŞLƏRİ
- ÇİLİNGƏR
- ELEKTRİK
- DİAQNOSTİKA
- ADAPTASİYA
- KİMYƏVİ TƏMİZLƏMƏ
- POLİROVKA
- KERAMİKA 9H PRO

Address: AZ1001
Azerbaijan Baku
Faiq Yusifov 71,
(Nərimanov keçmiş Pekin restoranının yanı)

Address: AZ1001
Azerbaijan Baku
Yusif Vəzir Çəmənzəminli 5
(Olimpik Star idman kompleksinin yanı)

azart_tuning
tuningservice.az
www.az-art.az

+99455 855 77 66
+99450 978 55 55

NTC
LLC

New Technology Corporation

20

İL SİZİNLƏ